www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 dekabr 2016-cı il Çərşənbə axşamı № 289 (6610) Qiymәti 60 qəpik

Xəbər

**Bakıda daha avtobus ağır qəza törətdi: ölən var**

yazısı səh.14-də

Gündəm

**Qarabağda "tufanqabağı sakitlik" - düşmən fürsət gözləyir**



Azərbaycanın sarsıdıcı silahlar alması düşməni təlaşlandırıb; növbəti təxribatlar istisna deyil; ekspertlər son durumu şərh edirlər

yazısı səh.11-də

**Yolu haradan gəldi keçən piyadalar həbs olunacaq**

yazısı səh.3-də

**Azadlıq carçısı ABŞ şərin simvolu kimi - dəyişən dəyərlər**

yazısı səh.4-də

**Baş nazir müavininin "böyük sıçrayışı" - Əli Əhmədov nə demək istəyib?**

yazısı səh.3-də

**Nazirlərin və deputatların məqalələrini kim yazır...**

yazısı səh.12-də

**İran nümayəndə heyəti Azərbaycana gəlir**

yazısı səh.5-də

**Hafiz Hacıyevdən "bəzi nazirlər üsyan hazırlayır" xəbərdarlığı**

yazısı səh.3-də

**Rəhim Qazıyevlə Surət Hüseynovu ittiham edən prokurorun müəmmalı ölümü**

yazısı səh.6-da

**Ölkənin qaz problemi - vətəndaş soyuqdan donur, rəsmilər isə...**

yazısı səh.10-da

**"Metropark"da ayağı eskalatora ilişən 6 yaşlı qızın barmağı qopdu**

yazısı səh.14-də

**Gələn il bütün sahələrdə bahalaşma olacaq**

yazısı səh.15-də

## Düşmən ölkə başçısının fiaskoya görə revanş cəhdi

# SƏRKİSYAN YENİDƏN MOSKVADA: ÜÇÜNCÜ CƏHD...

Kreml "Rus NATO"sunu ermәniyә etibar edәcәkmi? Qalmaqallı mәsәlәyә Putin vә Nazarbayev nöqtә qoymalıdır; Bakı vә Ankara üçün kritik gözlәnti...



yazısı səh.5-də

## Qardaşı oğlu Tağı Əhmədovu necə satıb - məhkəmədə sensasion etiraf

Metropolitenin sabiq rəisinin ən yaxın qohumu ona qarşı ifadə verib: "MTN-də döydülər, məcbur oldum..."; Sabiq məmurun başına açılan oyunun şok təfərrüatları ortaya çıxıb; T.Əhmədovun danışmasına 1 gün qalır...

yazısı səh.6-da



**Eldar Namazovun gizli dairəsi və "İldırım" adlı milyonluq yubiley hədiyyəsi - müsahibə**

yazısı səh. 8 və 9-da



Astan Şahverdiyev

**Dilinin balasına düşən deputat üzr istədi, amma qalmaqal bitmədi**

yazısı səh.7-də



Hacı Mazan

**Şeyxin şəriki qalmaqallı məhkəmədə ifadə verdi**

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 289 (6610) 27 dekabr 2016



## Prezident "Bakı Ağ Şəhər"də görülən işlərlə tanış oldu

**Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər"də görülən işlərlə tanış olub, Fəvvarələr Meydanı parkı, ictimai parkinq və piyada keçidi kompleksinin təməlqoyma mərasimində iştirak edib.**

APA-nın məlumatına görə, "Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov və "Bakı Ağ Şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına ötən müddətdə görülən işlər barədə məlumat veriblər.

Dövlət başçısı və xanımı Yaşıl Ada kvartalının artıq məskunlaşdırılan ilk məhəllələri ilə tanış olublar. Məhəllələrdə uşaqlar üçün oyun meydançası, yaşıllıq zonası, yerüstü avtodayanacaq yaradılıb.

Sonra prezident İlham Əliyevə 2-ci Yaşıl Ada küçəsində aparılan işlər barədə məlumat verilib.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Yaşıl Ada kvartalı çərçivəsində salınan yeni yaşıllıq məkanı ilə də tanış olublar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər" ərazində tikinti işlərinin gedişi ilə tanış olmaq üçün avtobusla gəzintiyə çıxıblar.

Dövlət başçısına məlumat verilib ki, burada "Ağ Şəhər"in Mərkəzi Park Rayonu salınacaq.

Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər" çərçivəsində layihələndirilən Fəvvarələr Meydanı parkı, piyada keçidi və ictimai parkinq kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev "Bakı Ağ Şəhər" çərçivəsində layihələndirilən Fəvvarələr Meydanı parkı, piyada keçidi və ictimai parkinq kompleksinin təməlini qoyub. Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada ağac əkiblər.

## Zeynəb Xanlarovaya ən yüksək orden verildi



**Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə görkəmli müğənni, xalq artisti Zeynəb Xanlarovaya "Heydər Əliyev" ordenini təqdim edib. Bu barədə Azərbaycan prezidentinin mətbuat xidməti məlumat yayıb.**

İ. Əliyev Z. Xanlarovanı qarşıdan gələn yubileyi münasibətilə təbrik edib, ona cansağlığı, yeni uğurlar arzulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

## Azərbaycanda yaşayış minimumu və ehtiyac meyarı artırılıb

**Azərbaycan prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında 2017-ci il üçün ehtiyac meyarının həddi haqqında" 2016-cı il 16 dekabr tarixli qanunun tətbiqi barədə sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2017-ci il üçün ehtiyac meyarının həddi 116 manat məbləğində təsdiq edilib.

Müvafiq qanun 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

Dövlət başçısının digər sərəncamı ilə 2017-ci il üçün yaşayış minimumu ölkə üzrə 155 manat, əmək qabiliyyətli əhali üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat məbləğində müəyyən edilib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# bp ilə müqavilə uzadıldı-siyasi, yoxsa iqtisadi addım?

### Şirkət 2024-cü ildən sonra da Azərbaycanda çalışmağı planlaşdırır, ekspertlər müqaviləni müsbət qiymətləndirirlər

**Bir neçə gün əvvəl dövlət başçısı İlham Əliyev bp şirkətinin prezidenti Robert Dadli ilə 2014-cü ildən- "Əsrin müqaviləsi" başa çatdıqdan sonra "Azəri-Günəşli-Çıraq" yatağında əməkdaşlıq perspektivlərini müzakirə edib. bp rəhbəri deyib ki, şirkət bu yatağın gələcəkdə işlənməsində maraqlıdır. Bu, investisiyaların davam etdirilməsi, böyük həcmdə əlavə neft hasilatı üçün imkanlar yaradacaq. Görüş zamanı "Şahdəniz-2" layihəsinin reallaşması və "Şəfəq-Asiman" perspektiv strukturunda işlərlə bağlı məsələlər müzakirə olunub. Maraqlıdır, bu müqavilə strateji anlamda Azərbaycan üçün bir müdafiə buferi rolu oynayır, yoxsa iqtisadi səbəblər öndədir? Ekspertlər məsələ ətrafında fikirlərini musavat.com-la bölüşüblər.**



**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, bu razılaşmanın olması iqtisadi layihədən çox siyasi dəstək layihəsidir: "Çünki bp kimi böyük bir şirkətin Azərbaycanda qalması və indiki şərtlər daxilində müəyyən anlaşmalara getməsi ehtimalı təbii ki, bir dəstək göstəricisidir. Çünki Azərbaycanda 2024-cü ildən, bp-nin təslim müqaviləsinə imza atdığı dövr bitdikdən sonra ikinci mərhələdə Azərbaycanda ilk mərhələdə olduğu qədər neft hasilatının olması ehtimalı çox aşağıdır. Getdikcə resurslar tükənir, kifayət qədər böyük həcmli yeni resurslar, yeni yataqlar yoxdur. Amma ən azından, belə bir niyyətin olması, hökumətlə ilkin anlaşmaya getməsi həm bp şirkətinin, həm də ümumiyyətlə, Böyük Britaniyanın bir dəstək ifadəsidir. Azərbaycandakı indiki danışıqlar bunu göstərir. Detalları gələcəkdə bəlli olacaq. Bu, ilkin razllaşmadır. Bundan sonra uzun müddət danışıqlar nəticəsində kontraktın, bağlanacaq sazişin detalları müzakirə olunacaq. Təbii ki, hər bir tərəf - həm Azərbaycan, həm Britaniya tərəfi, bp şirkəti özünə daha sərf edəcək şərtlərin müqavilədə əks etdirilməsinə çalışacaq. Kifayət qədər ağır danışıqlar olacaq. İlkin niyyətin olması bp-nin Azərbaycanda gələcəkdə də işləmək arzusunu ifadə edir. Özü-özlüyündə bu faktın özü ölkə üçün və ölkə iqtisadiyyatı üçün pozitiv bir siqnaldır".

**Ekspert Qubad İbadoğlu isə musavat.com-a bildirib ki, müqaviləyə daha çox iqtisadi tərəfdən baxmaq lazımdır:** "Artıq bu kimi müqavilələr ilkin siyasi mahiyyətini itirib və artıq belə müqavilələr daha çox iqtisadi maraqlar üzərində qurulub. Ona görə də bu istiqamətdə bp-nin müqaviləsinə daha çox korporativ anlamda baxmaq olar. Azərbaycanla müqavilə də bu istiqamətdə dəyərləndirilməlidir. Təbii ki, bp siyasi əsaslar olmadan, siyasi yanaşma ortalığa qoyulmadan hər hansı müqavilə imzalamır. Amma "Əsrin müqaviləsi"ni indiki müqavilə ilə eyniləşdirmək düzgün deyil. İndiki şərtlərdə siyasi maraqlar iqtisadi amillərin arxasında qalır. Əvvəlki 1994-cü il müqaviləsi həqiqətən siyasi müqavilə idi. İqtisadi anlamdan çox siyasi məna kəsb edirdi. İndiki halda iqtisadi maraqlar, manafelər, korporativ hədəflər üçün imzalanan müqavilədir. Gözlənilən müqavilə idi".

❑ Röya RƏFİYEVA



Azər Süleymanov

## Gürcüstanda azərbaycanlı deputat Vahid Milli Hərəkat Partiyasının sıralarını tərk edib

**Gürcüstan parlamentinə proporsional qaydada deputat seçilən Azər Süleymanov Vahid Milli Hərəkat Partiyasını tərk edib.**

APA-nın Gürcüstan bürosunun məlumatına görə, bu barədə yerli mətbuat xəbər yayıb.

A. Süleymanovun "Gürcüstanın Avropa Gələcəyi Naminə" parlament fraksiyasına daxil olduğu bildirilir.

Yerli mətbuata açıqlama verən A. Süleymanov qərarının partiya daxilində baş verən münaqişə ilə bağlı olmadığını bildirib: "Mən artıq partiyanın Siyasi Bürosunun üzvü deyiləm. Partiyadan çıxan yalnız mən deyiləm".

A. Süleymanov Milli Hərəkat Partiyasının qurultayında heç bir qarşıdurma olmayacağını bildirib.

APA-nın Gürcüstan bürosunun müxbiri dəfələrlə A. Süleymanovla əlaqə yaratmağa çalışsa da, onun telefonu bağlı olub.

Qeyd edək ki, azərbaycanlı deputatlardan Ruslan Hacıyev dünən parlamentdə qeydiyyatdan keçən "Gürcü Arzusu - mühafizəkarlar" fraksiyasının, Savalan Mirzəyev isə "Gürcü Arzusu-sosial demokratlar" fraksiyasının üzvü olub.

## "Bəzi klinikalar və həkimlər haqqında şişirdilmiş məlumatlar ağır fəsadlara səbəb olur"

**"Xəstəliyi tam sağaldacağını deyən həkim və bunu yazan KİV qəbahətə yol verir, hətta cinayət edir". Bunu "Report"a açıqlamasında Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru, Azərbaycanın baş travmatoloqu Vaqif Verdiyev deyib.**

O bildirib ki, televiziya kanallarında bəzi klinikaların və həkimlərin reklamı zamanı şişirtmələrə yol verilir, sonsuzluq və sağalmayan bəzi xəstəliklərin müalicəsinə 100 faiz zəmanət verildiyi bəyan olunur: "Bu çür məlumatlar əhalini çaşdırır və nəticədə çox ağır fəsadlar yaranır. Dünyanın heç bir ölkəsində, hətta tibbin yüksək səviyyədə inkişaf etdiyi ABŞ-da belə həkimlər heç vaxt xəstəliyin sağalmasına tam zəmanət vermirlər. Bu məsələdə ancaq ehtimaldan danışmaq olar".

## Yeni ildə 5 gün iş olmayacaq

**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni illə əlaqədar Azərbaycanda 5 gün qeyri-iş günü olacaq.**

APA-nın məlumatına görə, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü, 1-2 yanvar Yeni illə bağlı bayram günləri elan edilib.

Ancaq 2016-cı il 31 dekabr tarixi şənbəyə, 1 yanvar 2017-ci il tarixi bazar gününə təsadüf etdiyindən Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yerləri dəyişdiriləcək, 3, 4 yanvar qeyri-iş günü olacaq.

Beləliklə, Yeni ildə Azərbaycanda ardıcıl olaraq 5 gün - 31 dekabr, 1, 2, 3, 4 yanvar qeyri-iş günüdür.



## "Prezidentin xaricdə yaşayan soydaşlarımızla bağlı mövqeyi birmənalıdır"

**"Dünən cənab prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bütün soydaşlarımızı təbrik edərək, onların hər birinə firavan həyat və işlərində müvəffəqiyyətlər arzulayıb. Azərbaycan dövləti dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, həmvətənlərimizə həmişə xüsusi diqqət yetirib, onların səmərəli fəaliyyətini yüksək qiymətləndirib".**

Bunu APA-ya açıqlamasında Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı müzakirələrə münasibət bildirərkən deyib.

Ə. Həsənov qeyd edib ki, prezident İlham Əliyev də mərhum prezident Heydər Əliyevin xaricdə yaşayan soydaşlarımızla bağlı həyata keçirdiyi siyasətə həmişə sadiqliyini nümayiş etdirir və həmvətənlərimizlə bağlı məsələlərə prinsipial şəkildə yanaşaraq onları daim diqqət mərkəzində saxlayır: "Cənab prezident Dünya Azərbaycanlılarının II Qurultayındakı çıxışında qeyd edib ki, dünyada yaşayan soydaşlarımız təşkilatlanır, yaşadıqları ölkələrin həyatında daha da fəal rol oynayırlar. Prezident qeyd edib ki, bu, həm onların mövqelərini möhkəmləndirir, eyni zamanda müstəqil Azərbaycan Respublikasının mövqeyini gücləndirir, əhəmiyyətini artırır. Biz çox şadıq ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar o ölkələrin həyatında, iqtisadiyyatında çox mühüm rol oynayırlar və demək olar ki, artıq çox möhkəm mövqelərə malikdirlər".

**Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan prezidentinin və dövlətinin xaricdə yaşayan soydaşlarımızla bağlı mövqeyi birmənalıdır və bu yanaşmada həmvətənlərimizin fəaliyyətinə yüksək qiymət öz əksini tapıb:** "Ona görə də hər hansı şəxsin xaricdə yaşayan azərbaycanlılarla bağlı fikirləri yalnız onun öz düşüncəsinin məhsulu olub fərdi mövqeyini ifadə edir və bununla bağlı məsuliyyəti də bilavasitə o özü daşıyır".

Ə. Həsənov xaricdə yaşayan soydaşlarımızı qarşıdan gələn həmrəylik günü və Yeni il bayramı münasibətilə təbrik edib, onlara cansağlığı, xoşbəxtlik və səadət arzulayıb.

Qeyd edək ki, Milli Məclis üzvü Astan Şahverdiyevin xaricdə yaşayan azərbaycanlılar barədə işlətdiyi ifadələr narazılıq doğurub və sosial şəbəkələrdə aktiv müzakirə olunmaqdadır.

# Baş nazir müavininin "böyük sıçrayışı" - Əli Əhmədov nə demək istəyib?

**Baş nazirin müavini, YAP-ın icraçı katibi Əli Əhmədovun Azərbaycanın yeni bir sıçrayışa hazırlaşdığı barədə dedikləri internet məkanını zəbt edib. Hakim partiyanın funksionerinin açıqlaması sosial şəbəkələr və mətbuatda ciddi müzakirə mövzusuna çevrilib.**

Əksəriyyət indiki ağır bir şəraitdə nazir müavininin dediklərini mümkünsüz sayır. Ə.Əhmədovun fikirlərinə tərəf çıxanlar da var. Hər kəs sıçrayış dedikdə onun nələri nəzərdə tutması ətrafında mülahizələrini irəli sürür.

**YAP-ın icra katibinin ən çox diqqətçəkən fikirləri bunlardır:** "Azərbaycan növbəti böyük dəyişiklik yolunun astanasındadır. Ölkəmiz təkcə islahatların deyil, böyük inkişafın, əzəmətli dəyişikliklərin yeni dalğasına hazırlaşır. Heç bir şübhə yoxdur ki, əvvəlki iki onillikdə olduğu kimi, indiki mərhələdə də Azərbaycan dünyanı yeni möcüzəsi ilə təəccübləndirə biləcək. Azərbaycan yeni bir sıçrayışa hazırlaşır".

**Deputat, iqtisadçı ekspert Vahid Əhmədov hesab edir ki, bölgədə sakitlik olsa, dünya dövlətlərində gedən təlatümlər müəyyən qədər yumşalsa, Amerikanın yeni seçilmiş prezidenti sülhməramlı siyasət yürütsə, müəyyən problemlər öz həllini tapa bilər:** "Cənab prezidentin imzaladığı "Yol xəritəsi"ndə biz bu müddət ərzində orada göstərilən bütün maddələri yerinə yetirə bilsək, Azərbaycanda elə də ciddi problemlər olmayacaq. Ola bilər ki, 2017-2018-ci illər iqtisadi cəhətdən ağır illər olacaq. Amma hesab edirəm ki, bu proqramı yerinə yetirə bilsək, ölkəmizin gələcəyi xoşbəxt olacaq. Biz müstəqil dövlət qurmuşuq, Azərbaycanın ən böyük xoşbəxtliyi onun müstəqilliyindədir. Çalışmalıyıq ki, bunu qoruyub saxlayaq. Müəyyən problemlər, əzablar ola bilər. Amma müstəqilliyimizlə bunların hamısına dözməliyik. Proqramları, "Yol xəritəsi"ni həyata keçirmək üçün iqtisadi və siyasi islahatlara çox böyük ehtiyac var. Düşünürəm ki, artıq biz gecikirik. Struktur, kadr islahatları həyata keçirilməlidir, artıq üzümüzə gələn ildə buna start verməliyik. Neftin qiymətində ciddi problemlər var, neftin hasilatı aşağı düşüb. Yəni bu problemlər var. Qeyri-neft sektorunun inkişafına nail ola bilsək, hüquq-mühafizə orqanlarında islahatları həyata keçirə bilsək, məhkəmələri müstəqil sistemə çevirməyə nail olsaq, nəticələr qazana bilərik, Azərbaycanı yüksək səviyyəyə çatdırmaq mümkün olar. Əli Əhmədov əzəmətli dəyişikliklər dedikdə nələri nəzərdə tutduğunu deyə bilmərəm.



**Vahid Əhmədov:** "Əli Əhmədov əzəmətli dəyişikliklər dedikdə..."



**Fərəc Quliyev:** "Amma Əli müəllimin konkret nədən danışdığını..."

İqtisadi cəhətdən yenə də deyirəm ki, müəyyən çətinliklərimiz olacaq. Amma Azərbaycanın əsas problemi Dağlıq Qarabağdır. Əgər yaxın beş ildə bu problemi biz həll edə bilsək, əlbəttə, Azərbaycan böyük inkişafa nail olacaq. Əks halda, problem uzanacaqsa, ciddi problemlər yaşaya da bilərik. Azərbaycanın imkanı var ki, yaxın beş ildə ciddi inkişafa nail olan ölkəyə çevrilsin. Təbii sərvətləri, yerləşdiyi coğrafi şərait buna tam imkan yaradır".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev Azərbaycanda postneft dövrü üçün hazırlıqların getdiyini bildirdi:** "Bu fikirlər Əli Əhmədova aiddir. Heç bir şeyə əsaslanmadan bu barədə fikir söyləməyimiz doğru olmazdı. Nəyə əsaslanıb belə deyirsə özü bilir. Onu deyə bilərəm ki, Azərbaycanda postneft üçün hazırlıqlar gedir. Hərçənd ki, bu çoxdan getməli idi, indiki çətinliklərin yaranmaması üçün. Azərbaycanın imkanı var ki, neft gəlirlərinə toxunmadan ciddi şəkildə mövqelər qazansın. İqtisadi cəhətdən qeyri-neft sektoru üçün nəzərdə tutulmuş konsepsiyalar reallaşdırıla bilər. İkinci tərəfdən, bölgədə Türkiyə ilə Rusiyanın münasibətləri yeni situasiyanın yaranmasına gətirib çıxara bilər ki, bu, Dağlıq Qarabağ probleminin həllinin tez bir zamanda mümkün olmasına səbəb olar. İdarəetmə sahəsində struktur dəyişiklikləri nəzərdə tutulurdu, referendumda vitse-prezidentlər institutu yaradıldı. Ola bilər ki, Nazirlər Kabinetinə münasibətdə yeni yanaşma olsun. Əli Əhmədovun fikirlərində bunlar nəzərdə tutula bilər. İqtisadi və siyasi yöndə ciddi dəyişikliklər olarsa, əlbəttə, təəccübləndirici inkişafa nail ola bilərik. Amma Əli müəllimin konkret nədən danışdığını, nəyi nəzərdə tutduğunu onun özündən soruşmaq daha doğru olardı. Əslində hər bir millətin hədəfləri olur və bu hədəflərə çatmaq üçün maneələr olur. Bu maneələri də aşmaq üçün konsepsiyalar olur. Azərbaycanın tarixi coğrafi ərazisində Bütöv Azərbaycan qurmaq üçün hədəfi olmalıdır. Belə bir ideya var və bu ideyaya gedən yolda ideologiyalar müxtəlif ola bilər. Amma konkret olaraq Azərbaycanda bu hədəf dəyişməməlidir. Buna getmək üçün situasiya mövcuddur. Dünya şəkillənir. Böyük qütblərin toqquşması zamanı Azərbaycan bundan yararlanmağı bacarmalıdır. Azərbaycanın imkanı var ki, özünün iqtisadi potensialını, insan resurslarını artırsın, hədəflərini elan eləsin və ayaqüstə durub o hədəflərə doğru getsin. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bölgədə yaranmış vəziyyətdən istifadə edərsə, qeyri-neft sektorunun inkişafı üçün gerçək yaradışlara nail olarsa, ciddi islahatlara gedib, daxildə barışıq əldə edərsə, bütün qüvvələri bir yerə yığarsa, qarşımıza qoyduğumuz hədəflərə çata da, dünyanı təəccübləndirə də bilərik".

❑ **Cavanşir ABBASLI**

# Hafiz Hacıyevdən "bəzi nazirlər üsyan hazırlayır" xəbərdarlığı

## MMP sədri: "Elə dəhşətli şeylər bilirəm ki, onlardan danışsam, ölkə bir-birinə dəyər"

**MMP sədri Hafiz Hacıyevin son vaxtlar radikallaşdığı, daha kəskin açıqlamalarla çıxış etdiyi müşahidə edilir. Mediaya verdiyi bütün açıqlamalardan "qan damır". Onunla əlaqə saxlayıb radikallaşmasının səbəbini xəbər aldıq.**

**Hafiz Hacıyev** bildirdi ki, gözünün qarşısında bir dəstə korrupsioner nazir, komitə sədri, onların ətrafı ölkəni, xalqı talamaqda davam edirlər, prezidentə xəyanət edirlər: "Bir dəstə məmur illərdir dövləti, xalqı talamaqla milyardlara sahiblənib. İndi həmin pulları Azərbaycanın iqtisadi çətinliklərinin düzəldilməsinə sərf etmək əvəzinə, ölkədə qarışıqlıq yaranmasına, üsyan hazırlığına, xalqı qəsdən narazı salıb üsyan vəziyyətinə gətirib çıxarmağa sərf edirlər. Mən bütün bunları görə-görə axı susa bilmərəm. Millətimin və əziz prezidentimin belə xəyanətkarlardan müdafiəsi üçün həyatımı qurban verməyə hazıram. Bunu mənim radikallaşmağım olaraq qəbul etməyin. Mən sərt mövqeyimi ortaya qoyub korrupsioner, xəyanətkar məmurları, nazirləri, deputatları ifşa edirəmsə, bunu hansısa şəxsi mənafeyim üçün etmirəm. Məni maraqlandıran ancaq dövlətimin, xalqımın taleyi, prezidentimlə xalqımın arasında olan birliyin qorunub saxlanmasıdır. Mən görürəm ki, bir sıra nazirlər, məmurlar özlərinin vəzifə ömürlərini uzatmaq üçün bu birliyi pozmaq, xalqın hədəfindən özlərini çıxarıb hədəfə prezidenti çıxarmaq istəyirlər, susa bilmərəm.



Hafiz Hacıyev

Mən hələ bildiklərimlə bağlı heç də hər şeyi danışmıram. Elə dəhşətli şeylər bilirəm ki, onlardan danışsam, ölkə bir-birinə dəyər, xalq bu azğınlaşmış nazirləri, bir sıra komitə sədrlərini ayağına daş bağlayıb dənizə atar. Sadəcə olaraq, burada da mən xalqımın, dövlətimin dinc yaşamasını, sabitliyin qalmasının vacibliyini nəzərə alıram. Belə demək mümkündürsə, hələ bir az susuram".

**H.Hacıyev məmurlara xəbərdarlıq da etdi:** "Ancaq buradan bir daha xəbərdarlıq edirəm, həmin nazirlər, məmurlar, deputatlar prezidentə, xalqa xəyanət istiqamətində apardıqları gizli və aşkar işlərini dayandırsınlar. Bir müddət əvvəl bir deputat xalqı ələ salan sərsəm açıqlamalar verdi. İki gün öncə Astan Şahverdiyev adında ana dilini unudan deputat məcburi köçkünləri, Rusiyada yaşayan 3 milyona yaxın vətəndaşımızı açıq-aşkar təhqir etdi. Onlar bu yolla da xalqda narazılığı artırmaq istəyirlər. Hələ bunlar aşkarda aparılan işlərdir. Xalqı prezidentlə üz-üzə qoymaq üçün gizlində daha xəyanətkar iş aparılır. Özü də bu cür işlərin arxasında vəzifəsini itirəcəyini düşünən nazirlər dayanır. Bilirlər ki, prezidentin başlatdığı islahatlar onların vəzifələrini itirməsinə səbəb ola bilər. Ona görə də bütün gücləri ilə islahatları sabotaj edirlər, islahatların qarşısını almaq istəyirlər. Onlar sanki xalqa, dövlətə meydan oxuyurlar. Birinin villasını çəkib göstərirlər, çıxıb deyir ki, bütün villalar mənimdir. Yəni heç kimi vecinə almadığını nümayiş etdirmiş olur. Bu cür məmurlar özlərini yığışdırsınlar. Mən ölümümü gözümün önünə almışam. Heç birindən də çəkinmirəm. Prezidentimin, xalqımın müdafiəsi yolundayam, cəsarətləri varsa, məni öldürsünlər".

❑ **E.SEYİDAĞA**



# Azərbaycanda qayda pozan piyadalar həbs olunacaq

**Azərbaycanda qayda pozan piyadaları həbs gözləyir. Bununla bağlı yol hərəkəti təhlükəsizliyi üzrə qanunvericiliyə yaxın zamanlarda dəyişiklik edilməsi nəzərdə tutulur.**

Avtosfer.az xəbər verir ki, hazırda qanunvericiliyə dəyişikliklər edilməsi üçün təkliflər hazırlanır. Təkliflərin gələn il Milli Məclisə təqdim ediləcəyi gözlənilir.

Maraq doğuran təkliflərdən biri yol hərəkəti qaydalarını pozan piyadalarla bağlıdır. Belə ki, yolda hərəkət hissələrini ayıran məhəccərin üstündən keçən piyadaların 15 günədək inzibati qaydada həbs olunması təklif olunur. Yolun ortasında quraşdırılan dəmir və ya beton arakəsmələrin üzərində tullanaraq yolu keçən piyadaların şəxsiyyəti nəzərə alınmaqla, 15 gün inzibati həbs cəzası ilə cəzalandırılması təklifinin zərurətdən irəli gəldiyi bildirilir.

Təklifi hazırlayan subyekt hesab edir ki, magistral və rayonlararası (şəhərlərarası) yollarda yolun hərəkət hissəsinə çıxaraq vurulan piyadaların sayı artıb. Hansı ki, həmin yollarda hərəkət hissələri dəmir və beton arakəsmələrlə kəsilib. Bu baxımdan, hesab olunur ki, belə piyadaların daha sərt şəkildə cəzalandırılması gələcəkdə bu kimi hadisələrin sayının azalmasına səbəb ola bilər.

Qeyd edək ki, hazırda İnzibati Xətalar Məcəlləsində piyadalarla bağlı 4 maddə üzrə məsuliyyət nəzərdə tutulur. Onların da hər birinin cəriməsi 20 manatdan ibarətdir.

YENİ MÜSAVAT
N 289 (6610) 27 dekabr 2016

# Rusiya təyyarəsi vurulub, yoxsa...

## “Məşhur bir hərbi kollektivi, generalları bir köhnə təyyarəyə doldurub göndərməyin özü müvafiq orqanların rəhbərliyinin, siyasi rəhbərliyin səhvi olub”



**Rusiyanın Türkiyədəki səfirinin qətlindən cəmi 6 gün sonra içərisində generallar da olan hərbçiləri, hərbi orkestri Suriyaya aparan Rusiya təyyarəsi «TU-154»ün qəzaya uğraması nəticəsində 91 nəfər həyatını itirdi. Rusiya Müdafiə Nazirliyi təyyarədə 91 nəfərin olduğunu, ilkin ehtimallara əsasən sərnişinlərin və ekipaj üzvlərinin hamısının öldüyünü açıqlayıb.**

Rusiya mediası xüsusi xidmət orqanlarına istinadən hadisənin qəza olduğunu, pilot xətası nəticəsində baş verdiyini açıqlayıb. Ancaq sonrakı saatlarda vəziyyət dəyişib və məlum olub ki, təhlükəsizlik orqanları terror aktı versiyasını araşdırır. Xüsusi xidmət orqanlarının Moskva ətrafındakı Çkalovsk hərbi aerodromunda və Soçi aeroportunda təyyarəyə çıxış imkanları olan şəxsləri yoxladığı məlum olub. Eyni zamanda Rusiya Müdafiə Nazirliyi «TU-154»ün pilotlarının təcrübəli və birinci sinif olduqlarını bəyan edib. Təyyarənin əsas pilotu Roman Volkovun 3 min saatdan artıq uçuş aktivi olan təcrübəli pilot olduğu qeyd edilib.

Yəni dolayısı ilə Rusiya MN də texniki və ya pilot xətası ehtimallarını şübhə ilə qarşılayır. Ortada qalır terror versiyası. Hansı ki, son zamanlar Rusiyanın başı üzərindən əl çəkmir. Məsələ ondadır ki, Rusiyanın Suriyaya keyfiyyətsiz təyyarə və təcrübəsiz pilot göndərməsi mümkün deyil.

Rusiya təyyarəsinin Soçidə yanacaq götürüb havaya qalxdıqdan dəqiqələr sonra dənizə düşməsi ilk olaraq ağıla terror şübhəsini gətirir. Təyyarə Suriyaya uçurdu, ehtimallara görə, göyərtədə olan 64 nəfər “Qırmızı ordu” orkestri Hələbdə yeni il konserti verəcəkdi. Bu da bir növ Hələb zəfərinin elanı idi.

Bir sıra ekspertlər təyyarənin terror aktının qurbanı olduğu versiyasının da inandırıcı olduğunu iddia edirlər. Qeyd edirlər ki, bu hadisə Rusiyaya qarşı son vaxtlar başladılan terror müharibəsinin tərkib hissəsidir. Bu addımlarla Rusiyanın güclü təhlükəsizlik imkanlarına malik ölkə olduğu imicini məhv etmək, Rusiyanın zəif, üzərində istənilən zaman istənilən əməliyyatı həyata keçirmək mümkün olan bir dövlət olduğu imicini formalaşdırmaq niyyəti güdülür. Bu fikirdə olan ekspertlərin fikrincə, istisna deyil ki, Rusiya Müdafiə Nazirliyi və siyasi rəhbərliyi də bunu bildiyi üçün hadisənin texniki qəza olduğunu ictimaiyyətə elan etməyi ən məqbul yol biliblər. Bu fikirdə olan ekspertlər 2015-ci ilin oktyabrında Şarm əş-Şeyxdən (Misir) Sankt-Peterburqa uçan Rusiya təyyarəsinin havaya qalxdıqdan 20 dəqiqə sonra yerə çırpıldığını və Rusiya hökumətinin hadisəni əvvəlcə texniki qəza adlandırmasını, bir neçə ay sonra isə təyyarənin terrorun qurbanı olduğunu etiraf etdiyini xatırladırlar.

Odur ki, sonuncu təyyarə faciəsinin bir müddət sonra texniki qəza yox, terror hadisəsi olduğunun elan edilməsi istisna edilməməlidir.

**Politoloq Qabil Hüseynli isə hesab edir ki, faciəyə səbəbin texniki nasazlıq olduğu versiyası inandırıcıdır:** “Bu və digər qanlı terror aktlarını törədənlər İŞİD, «əl Qaidə» və digər bunlara bənzər terror təşkilatlarıdır. Onların da əlinin Rusiyanın Çkalovsk hərbi hava meydanına çatması inandırıcı deyil. Çünki həmin ərazi çox ciddi qorunur, sırf hərbçilərin ciddi nəzarəti altındadır. Təyyarədə 2 general və bir neçə polkovnikin olması da səfərin mühüm əhəmiyyətini göstərir. Bu nöqteyi-nəzərdən, zənnimcə, təyyarə ciddi surətdə qorunmalı idi. İlk gündən rəsmi Moskva terror ehtimalını istisna etdiyini bəyan elədi. Bildirildi ki, təyyarə texniki nasazlıq nəticəsində qəzaya uğrayıb. Üstəlik də əlavə edilir ki, təyyarəni sürənlər peşəkar və çoxillik təcrübəyə malik olublar. Amma təyyarənin bir qüsuru xüsusi vurğulanır ki, təyyarə 1983-cü ildə istehsal edilib və 33 il idi istismarda idi. Ümumiyyətlə, ”TU-154" tipli təyyarələr özünün keyfiyyətsizliyi və artıq istismar müddətini bitirmiş təyyarələr kimi ad çıxarıblar. Bütün bunları nəzərə alaraq qəzanı texniki nasazlıqdan doğan faciə kimi səciyyələndirmək lazımdır. Sadəcə olaraq, bu qədər məşhur bir hərbi kollektivi, generalları bir köhnə təyyarəyə doldurub göndərməyin özü müvafiq orqanların rəhbərliyinin, siyasi rəhbərliyin səhvi olub".

**Bəs Rusiya rəhbərliyinə bu hadisənin texniki nasazlıq nəticəsində baş verən qəza kimi tanınması, yoxsa terror aktı olaraq tanınması sərf edir?**

**Politoloq qeyd etdi ki, faciənin texniki qəza olduğunu söyləmək və cəmiyyətdə, dünyada bu cür qəbul edilməsi Rusiya siyasi rəhbərliyinə daha uduşlu variantdır:** “Təyyarənin parçalanmış gövdəsinin şəkillərini çox tez bir zamanda sosial şəbəkələrə, mediaya yaydılar və rəsmi təbliğat hadisənin texniki qəza olduğu istiqamətində aparıldı. Bu da onu göstərir ki, siyasi hakimiyyət terror versiyasının istisna olduğuna hər kəsi inandırmaqda maraqlıdır”.

Qeyd edək ki, “TU-134" və ”TU-154" təyyarələrinin istehsalına 1960-cı illərdə başlanılıb. Bu tipli təyyarələr yaddaşlarda xeyli insan tələfatı ilə nəticələnən qəzalar törətməsi ilə qalıb.

“Azərbaycan Hava Yolları” da 2010-cu il dekabrın 24-dən Rusiyanın istehsalı olan təyyarələrin istismarından imtina edib. Həmin zamana qədər Azərbaycanda Rusiyanın istehsalı olan “TU-134" və ”TU-154" tipli təyyarələrdən istifadə olunurdu.

**Tanınmış hərbi aviasiya eksperti Ədalət Əliyev “Yeni Müsavat”a bildirib ki, Rusiyada bu təyyarələr hələ də istifadə olunursa, demək ki, onların istismar müddəti başa çatmayıb:** “Ümumiyyətlə, təyyarələr köhnəlir deyə bir anlayış yoxdur. Təyyarənin ya istismar müddəti başa çatır, yaxud da o, hələ uçuşa yararlı vəziyyətdə olur. Əgər istismar müddəti başa çatıbsa, demək ki, onlar xəttə buraxılmamalıdır və buraxılmır. İli köhnə olsa da istismara yararlı olan təyyarələr xəttə buraxılır. İstismara yararsızı isə 1 saat da olsun uçuşa qoymazlar”.

❑ **Etibar SEYİDAĞA**

# Azadlıq carçısı ABŞ şərin simvolu kimi - dəyişən dəyərlər

## Dünyada Amerika əleyhdarlığının gerçək və yanlış səbəbləri barədə qeydlər

**Bir qayda olaraq 3-cü dünya ölkələrində baş verən kataklizmlər, savaş və çevrilişlərdə ABŞ ittiham olunur. Sovet dönəmini yaşamış vətəndaşların xatırladığı bir dönəm vardı: “soyuq müharibə” illərində SSRİ mətbuatı dünyada baş verən olaylarda birbaşa Amerikanı, “Qərb imperializmini” ittiham edirdi. Bu kampaniya sovetlərin sonuna qədər davam etdi.**



Sonradan sovetlər dağıldı və məlum oldu ki, əslində “şər imperiyası” SSRİ, Qərb isə demokratiya və azadlıq ünvanı imiş. Təxminən 90-cı illər boyu və 2000-ci illərdə əks-təbliğat getdi, Qərb demokratiya və azadlıq bəxş edən güc kimi təbliğ olunmağa başladı. “Xilaskar, demokratiya carçısı Qərb” obrazı xüsusən də postsovet respublikalarında 2000-ci illərin ortalarında itməyə başladı. Əfqanıstan, İraqın işğalı hər nə qədər ilk vaxtlar terrora qarşı qlobal müharibənin parçası olaraq görülsə də, sonradan davam edən zorakılıqlar, müharibənin səbəbləri ilə bağlı şübhələr və digər hadisələr Qərbə qarşı ilk dəfə ümidsizliyə səbəb oldu, insanlar keçmiş fikirləri xatırlamağa başladılar.

“Ərəb baharı” və Qərb ölkələrinin bunda oynadığı rol isə bütövlükdə dünyada Qərbə, xüsusən də ABŞ-a qarşı mənfi münasibətin güclənməsinə gətirdi. Azərbaycanlılar üçünsə bu durum daha çox seçkilər zamanı Vaşinqtonun demokratlara vəd olunan və ya gözlənilən dəstəyi verməməsi ilə başlandı.

Yenə, demək olar, bütün dünyada baş verən neqativ hadisələr, terror, siyasi, hərbi çevrilişlər, xaos və müharibələr bir qayda olaraq ABŞ-la əlaqələndirilir. Doğrudanmı dünyanı qarışdıran, çevrilişlər, terror, müharibələrin səbəbkarı ABŞ-dır? Yoxsa Amerika dünyanın Qərb olmayan ölkələri üçün şər simvoluna bilərəkdən çevrilib?

Ondan başlayaq ki, “soyuq müharibə” illərində sovet və qərb bloku arasında uzun illər aşkar və gizli müharibə oldu. Avropa, Yaxın və Uzaq Şərq, hətta Latın Amerikası sovetlərlə amerikalıların gizli və aşkar “savaş meydanı” idi. Şərqi Avropadakı olaylar, Yaxın Şərqdəki çevrilişlər bir qayda olaraq iki tərəfdən birinin maraqlarına cavab verirdi. Vyetnam, Əfqanıstan müharibələri isə SSRİ və ABŞ-ın vəkalət savaşı idi. Kuba da Batista rejimi, Çilidə və Latın Amerikasının digər ölkələrində, eləcə də Yaxın Şərqin despotik ərəb rejimləri, orta əsr qanunları ilə yaşayan monarxiyaların ABŞ tərəfindən dəstəklənən rejimləri dünyada Amerikaya qarşı mənfi münasibət və tənqidlərə səbəb olurdu.

Eləcə də sovetlərin Şərqi Avropada, Uzaq və Yaxın Şərqdə dəstəklədiyi diktatura rejimləri eyni ittihamları sovetlərə qarşı da aktual edirdi. Üstəlik, Qərbdə həyat tərzinin yüksək olması, Cənubi Koreya, Qərbi Almaniya nümunələri rifah şərtləri baxımından Qərbin təbliğatını daha güclü edirdi.

Aydın məsələ idi ki, bütün olanlar bir təbliğat idi. Dünyada mütləq yaxşı və ya pis olmadığı üçün 20-ci əsrin iki nəhəng imperiyasının bir-birinə qarşı savaşda istifadə etdiyi əsas silahlardan biri də təbliğat idi. “Soyuq müharibə” başa çatdıqdan və ABŞ-ın təkqütblü dünya hegemoniyası ideyasının iflasından bütün dünya anladı ki, kommunizm onu qəbul edən ölkələrə səadət və bərabərlik, rifah gətirmədiyi kimi, ABŞ-ın təklif etdiyi demokratiyanı qəbul edən ölkələrin heç də hamısı Qərbin rifah ölkələrinə çevrilmir.

Bugünkü hadisələrə baxdıqda, insanların baş verənlərdə ABŞ-ı ittiham etməsində doğru və yanlış olan məqamlar var. Bir çox hallarda ABŞ-ı və ya hansısa “xarici qüvvələri” ittiham etmək müasir dünyada siyasi qüvvələrin, dövlət adamlarının ən rahat “xilas yoludur”. Lakin burda həm də həqiqət yükü var. Məsələ ondadır ki, bu gün ABŞ dünyanın ən güclü orduya, hərbi texnikaya, ən böyük kəşfiyyata, izləmə sisteminə sahib, qüdrətli dövlətidir. Dünya ticarəti ABŞ valyutası ilə aparılır, ən böyük birja Amerikadadır. Yəni dolayısı ilə bütün problemlərin yaranmasında Amerikanı ittiham etmək üçün məntiqi əsas var.

Digər tərəfdən, Amerika siyasətçilərinin heç də həmişə demokratiyanın yanında olmadığı, enerji, silah ticarəti kimi maraqlar, dəstək verdiyi despotik rejimlər və digər bu kimi hadisələrdə əlinin olması ilə bağlı ciddi ittihamlar bir çox hallarda cavabsız qalır və dünyada ABŞ və onun aparıcısı olduğu Qərb dəyərləri üçün çətin sınaq yaradır. Yaxın Şərqdəki olaylarda, Latın Amerikası ölkələrində bu gün ABŞ şərin simvolu kimi qəbul olunur.

Burda müəyyən mənada psixoloji amillər də var. ABŞ-da insanların rifahı və təminatlı həyatının digər ölkələrdə olmamasının bir səbəbkarının da Amerika olduğunu düşünürlər. Hələlik ABŞ “soyuq savaş” zamanı olduğu kimi dünyaya “Qərb vitrini”, müsbət təcrübə təqdim etməyə tələsmir, bu isə ABŞ-a qarşı onun hegemoniyası altında dünyanın fəlakətə və xaosa sürüklənməsi ilə bağlı ittihamlara səbəb olur. Bir qayda olaraq ABŞ ölkələrin daxili işlərinə müdaxilə edən, Yaxın Şərqdə terrorçu, separatçı fəaliyyətlərə gizli dəstək verən, neftlə zəngin despotik rejimlərlə əməkdaşlıq edən dövlət kimi xarakterizə olunur. Qeyd etdiyimiz kimi, burada informasiya müharibəsinin müəyyən elementləri, təbliğat ünsürü olsa da, haqlı məqamlar da qeyd etdiyimiz səbəblərdən mövcuddur.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 289 (6610) 27 dekabr 2016

Düşmən ölkə başçısının fiaskoya görə revanş cəhdi



# Sərkisyan yenidən Moskvada: üçüncü cəhd...

## Kreml "Rus NATO"sunu erməniyə etibar edəcəkmi? Qalmaqallı məsələyə Putin və Nazarbayev nöqtə qoymalıdır; Bakı və Ankara üçün kritik gözlənti...

**Ermənistan prezidenti Serj Sərkisyan dekabrın 26-da Rusiyaya gedib. Erməni rəsmi qaynağının məlumatına görə, Sankt-Peterburqda o, Avrasiya İqtisadi Birliyinin sammiti və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT - ona "Rus NATO"su da deyilir) sessiyasında iştirak edəcək.**

Sözsüz ki, ən önəmli məqam məhz ikinci tədbirlə - KTMT-nin toplantısı ilə bağlıdır. Məsələ ondadır ki, budəfəki iclasda qurumun baş katibinin dəyişdirilməsi məsələsi əsas mövzulardan biri olacaq. Ayrı sözlə, hazırkı və birinci baş katib, general Nikolay Bordyujanı kimin əvəzləyəcəyi bilinməlidir.

İndiyədək yayılan məlumatlara əsasən, onun yerini rotasiya qaydasında Ermənistanın nümayəndəsi tutacaq. Lakin məsələ də elə ondadır ki, qurumun öz daxilində bununla bağlı konsensus yoxdur - Azərbaycan faktoruna görə.

***

Yada salaq ki, Bordyujanın sələfi hələ ötən ilin dekabrında dəqiqləşməli, yerinə erməni general gəlməli idi. Ancaq o vaxt məsələ gündəlikdən çıxarıldı. Daha sonra aprel döyüşləri səbəbindın İrəvanda planlaşdırılan toplantı da bir müddət kecikdi. Çünki konkret olaraq, Qazaxıstan və onun prezidenti Nursultan Nazarbayevin bunda maraqlı olmadığı üzə çıxdı. Doğrudur, o zaman Belarus və Rusiya prezidentləri də Ermənistana getməkdən imtina etdilər. Nəticədə toplantı az sonra Moskvada reallaşdı. Lakin baş katib N.Bordyuja yenə yerində qaldı.

Nəhayət, bu ilin oktyabrında KTMT dövlət başçıları İrəvanda bir araya gəldilər. Amma yenə Nazarbayevsiz. Qazax lideri bu dəfə xəstəlik səbəbilə işğalçı ölkənin paytaxtına getmədi (Oradan Bakıya gəlməli idi). Nəticədə ermənilərin arzusu yenə gözündə qaldı. Ümumiyyətlə, yerli analitiklər də İrəvan sammitini Serj Sərkisyan üçün fiasko kimi qiymətləndirdilər.

Bu xüsusda Sərkisyanın son səfərini üçüncü və ya revanş cəhdi də adlandırmaq olar. Alınacaqmı? Düşmən ölkə başçısı Rusiyadan nə ilə qayıdacaq? Tezliklə bəlli olacaq. Hər necə olmasa, üzv dövlətlərdən Qazaxıstan, Belarus, Qırğızıstan Azərbaycana dost münasibətdədir. Bir erməni politoloqunun dediyi kimi, əslində "Rus NATO"sunda Azərbaycanın dostu daha çoxdur, nəinki Ermənistanın. Yeri gəlmişkən, Peterburq sammitinə də bu dəfə Belarus prezidenti Aleksandr Lukaşenko təşrif buyurmayıb.

***

Rusiyaya gəlincə, onun məsələdə yekun mövqeyinin necə olacağı hələlik dəqiq deyil. Ancaq o da faktdır ki, 4 günlük aprel savaşından sonra Moskva panikaya düşən satellitini sakitləşdirmək üçün xeyli çalışıb. Ona bir sıra müasir silah kompleksləri, "İsgəndər"lər verib, Ermənistanın hava məkanını öz nəzarətinə götürüb, işğalçı ölkə ilə vahid hərbi qruplaşma yaratmaq qərarı verib.

Təbii ki, bunlar Azərbaycan və Türkiyə üçün xoş olmayan məqamlardır. Bu yaxınlarda isə Rusiya rəsmilərindən biri dedi ki, "İsgəndər"lər Ermənistanda Azərbaycana görə yox, bu ölkənin NATO üzvü olan dövlətlə həmsərhəd olması səbəbi ilə yerləşdirilib. NATO üzvü olan dövlət isə qardaş Türkiyədir. Hərgah Moskva Ankara və Bakı ilə münasibətlərə strateji önəm verdiyini bəyanlamaqdan yorulmur.

Sual da budur ki, Kreml ilin-günün bu vədəsində, ikitərəfli münasibətlərin böyük sınaqlar qarşısında olduğu hazırkı dönəmdə Türkiyə və Azərbaycanda əlavə qıcıq yaratmaq, "qaşınmayan yeri yara etmək" istəyəcəkmi?

***

Mövzu ilə KTMT-nin İrəvan sammitindən sonra rusiyalı politoloq, prezident Putinin etibarlı şəxslərindən sayılan Sergey Markovun maraqlı bir şərhi olmuşdu. V.Putinin danışmanı təşkilatda gözlənilən baş katib dəyişikliyindən dolayı rəsmi Bakının könlünü almağa hesablanmış şifrəli mesaj vermişdi.

**Sitatı xatırlatmağın yeri var: "Ermənistan KTMT-nin tamhüquqlu üzvü olduğu üçün onun nümayəndələri qurumda hansısa vəzifə tutmaq hüququndan məhrum edilməyib. Ancaq bu halda Rusiya təyinatın Bakıda neqativ qarşılanacağını anlayır. Rusiya Azərbaycana da mühüm müttəfiq kimi baxır. O səbəbə fikrimcə, KTMT-yə erməni şəxsin başçı təyin olunması hərbi və hərbi-texniki sahədə Rusiya-Azərbaycan qarşılıqlı əlaqələrində hansısa başqa formatlarla Moskva tərəfindən kompensasiya ediləcək. Rusiya Azərbaycanla hərbi sahədə əməkdaşlığı gücləndirəcək".**

Görünür, "Rus NATO"sunu erməniyə etibar edib-etməmək məsələsinə rəsmi Moskva həm də bu prizmadan yanaşacaq. Söz düşmüşkən, Rusiya baş nazirinin müavini, hərbi sənaye kompleksi üzrə kurator Dmitri Roqozinin təzəcə başa çatan Bakı səfəri ehtimal ki, bu mövzunu da özündə ehtiva edib.

Bir şey dəqiqdir ki, baş katiblik problemi ermənilərin xeyrinə həll olunsa belə, uduşda yəqin ki, yenə ən çox Moskva olacaq. İstisna deyil ki, bununla Kreml həm ara-sıra Qərbə sarı boylanan Ermənistanı özünə daha güclü bağlamaq və onun üzərində söz sahibliyini artırmaq, həm də Markovun işarə elədiyi kimi, ola bilsin, Dağlıq Qarabağ məsələsində İrəvana siyasi avans verib, onu kompromislər məsələsində daha ürəkli etmək niyyəti güdür.

Qəzetimiz çapa gedərkən KTMT-nin yeni baş katibinin kimliyi bəlli deyildi. Müzakirələr davam edirdi.

❑ Siyasət şöbəsi

# Məmurlara tamah vergisi



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Ermənistan parlamentinin üzvü, ana müxalifət təmsilçisi Aram Manukyan keçən həftə ölkəsinin ağır izolyasiya durumundan danışarkən maraqlı bir rəqəm söyləmişdi. Demişdi ki, əhali Ermənistana gələn hər mala görə əlavə 30% ödəyir, çünki ölkə blokadadır və dəmir yolu işləmir. Şükür Allaha ki, Azərbaycan blokadada deyil. Hərçənd bizim az qala, ona bərabər başqa dərdimiz var - məmur "blokadası".**

Bizdə yumurtadan tutmuş, bananadək hər məhsulun öz gözəgörünməz yiyəsi var - məmur-monopolist qismində. Əhalinin güzəranı da böyük ölçüdə onların insafına qalıb. İstəsələr qiymətlər elə olar, istəməsələr - belə. Bazar, azad iqtisadi rəqabət deyilən şey bizdə işləməz.

Yəni biz ermənilər kimi blokada vergisi verməsək də, acgöz məmurlara böyük "iştah vergisi" ödəyirik. Fəqət, onlardan bu barədə soruşsan, özlərini süddən çıxmış ağ qaşıq kimi göstərib, sənin özünü günahkar çıxararlar.

Prezident Vladimir Putin isə ötən həftə özünün ənənəvi illik konfransında son zamanlar Rusiyada həbsə alınan iri vəzifə sahiblərindən danışarkən məmurlara müraciətlə dedi ki, iştahaları bir az azaltsınlar. Söhbət təbii ki, korrupsiyadan, rüşvətdən gedir.

Bununla Putin söz yox ki, ölkəsində korrupsiyanın səviyyəsinin yüksək olduğunu etiraf etmiş olub. Düzdür, Rusiyadakı siyasi sistemin mahiyyəti bu bəlanın kökünü tam kəsməyi istisna edir. Ancaq hər halda istənilən mərəzin müalicəsi onun etirafından - diaqnozun düzgün qoyulmasından başlayır.

Azərbaycanda da faktiki, Rusiyadakına qohum siyasi sistem hökm sürür. Burda da korrupsiya, onun törəməsi kimi total monopoliya (inhisarçılıq) dərinə işləyib. Altını isə xalq, sadə camaat çəkir. Çünki həmin korrupsiya və monopoliyaya görə hər gün hamılıqla - sən, mən, o, cibimizdən əlavə ödənişlər edirik. Necə? Çox sadə: girdiyimiz mağazada, bazarda hansısa məhsulu gerçək qiymətindən 50-100%, bəzən 200% baha almaqla. Həmin əlavə ödəniş də məhz məmur tamahını doydurmağa yönəlir.

Konkret misal. Qəzetimizdəki son müsahibələrdən birində belə rəqəm yer alıb: Yeni Zelandiyada kərə yağının kilosu 2,5 dollaradır. Bu, təxminən, 4 manat 50 qəpik edir. Amma Azərbaycanda həmin yağ 3 dəfə baha - 11-12 manata satılır! Bax, hər kiloqram üçün ödədiyimiz əlavə 6-7 manat (daşınma xərcləri çıxılmaqla) bilavasitə acgöz, iştahası sonsuz məmur-monopolistlərin cibinə axır.

İslahatdan öncə bu problemi həll eləmək gərəkdir! Nə qədər ki, məmurlara camaat "iştah vergisi" ödəyəcək, Azərbaycanda sosial-iqtisadi sferada yaxşıya heç nə dəyişməyəcək - hər gün neçə-neçə sənəd, sərəncam imzalansa da. Müxtəsəri, öncə tamahı sərhəd tanımayan məmurların cilovu yığılmalı, korrupsiya və total rüşvətin kökü kəsilməlidir.

Bunu isə yalnız bir nəfər edə bilər - ölkənin rəhbəri. Komandanı köklü şəkildə savadlı, peşəkar, çevik, təmiz kadrlar hesabına yeniləməklə. Həm də bacardıqca tez.

***

Tez-tez eşidirik ki, biz Güney Qafqazın lider dövlətiyik. Ancaq hansı göstəricilərimizə görə? İlk növbədə ərazimizə və əhalimizin sayına və bir də təəssüf ki, korrupsiyanın miqyasına görə. Amma tutaq ki, ortaq aylıq əmək haqqına görə (303 dollar) nəinki qonşu Gürcüstandan (430 dollar), hətta işğalçı Ermənistandan da (404 dollar) geriyik və 71 ölkə arasında ən son yerlərdən birini tuturuq. Gürcüstan - 55, Ermənistan 57-ci yerdədir (Mənbə: BMT-nin Beynəlxalq Əmək Təşkilatının son hesabatı).

Nədən belə durum yaranıb: ondan ki, bir ölkədə korrupsiyanın həcmi ilə orta statistik insanın gəliri tərs mütənasibdir - korrupsiya artdıqca əhalinin gəliri azalır, deməli, güzəranı pisləşir. Aradakı fərq, yəni qanunsuz dövriyyədən yığılan pullar bəs hara gedir - artıq yazdıq: hara lazımdırsa, ora: uzunsov beynində doyma mərkəzi işləməyən acgöz məmurların cibinə.

İqtisadçılar çoxdan haray çəkir: təkcə korrupsiya və monopoliyanın kökünü kəsmək kifayətdir ki, qiymətlər nəinki qalxmasın, hətta düşsün...

# İran nümayəndə heyəti Azərbaycana gəlir



**İranın rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 26-29-da Azərbaycana səfərə gələcək.**

İqtisadiyyat Nazirliyindən "Report"a verilən xəbərə görə, səfər çərçivəsində Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının XI iclası, Azərbaycan-İran biznes forumu və dövlət rəsmiləri ilə görüşlər keçiriləcək. Bununla belə, iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunacaq.

Eyni zamanda səfər zamanı İran nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gedəcək, rəsmi görüşlərdə və bir sıra tədbirlərdə iştirak edəcək.

YENİ MÜSAVAT
N 289 (6610) 27 dekabr 2016

**Dekabrın 26-da ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**



# Qardaşı oğlu Tağı Əhmədovu necə satıb - məhkəmədə sensasion etiraf

## Metropolitenin sabiq rəisinin ən yaxın qohumu ona qarşı ifadə verib: "MTN-də döydülər, məcbur oldum..."; Sabiq məmurun başına açılan oyunun şok təfərrüatları ortaya çıxıb; T.Əhmədovun danışmasına 1 gün qalır...

Musavat.com xəbər verir ki, məhkəmə "Bakı Metropoliteni" QSC-nin sabiq sədri Tağı Əhmədovun epizodu üzrə davam etdirilib.

Amma gözlənildiyi kimi, Tağı Əhmədov dünən məhkəməyə gəlməyib. Məhkəmədə zərərçəkmiş T.Əhmədov ifadə vermədən, şahidlər dindirilib.

Şahidlərdən bir Tağı Əhmədovun qardaşı oğlu olub. O, əmisinin 3 milyon manatı Akif Çovdarova necə verməsi haqda danışıb.

İttiham aktında Akif Çovdarovun Tağı Əhmədovdan 3 milyon istəməsinin təfərrüatlarında yazılır ki, MTN-ə 10 ədəd "Range Rover" markalı avtomobil lazım olub. A.Çovdarov Tağı Əhmədovdan həmin maşınları alıb verməsini istəyib. Amma T.Əhmədov 1 milyon dollara başa gələcək bu təklifi qəbul etməyib.

Tağı Əhmədov iddiasında deyir ki, bundan sonra şantaj və təhdid edilib. Onun metroda işləyən qardaşı oğlu Şövqi Əhmədov və digər qohumu Elşən Tağıyev izlənilib. Növbəti dəfə isə xidmətin üçüncü idarə rəisi Rəsul Rəsulov Tağı Əhmədovla görüşüb. Ona rəhbərliyin mesajını çatdırıb. R.Rəsulov metropoliten haqda MTN-ə daxil olan şikayətlər əsasında onu həbs edəcəkləri, şəxsiyyətini zor təhbiq etməklə alçaldacaqları ilə hədələyib. Bunların baş verməməsi üçün isə T.Əhmədovun 3 milyon manat verməsini istəyib. Sabiq metropoliten rəisi bu tələbi də rədd edib.

T.Əhmədovun dediyinə görə, bundan sonra qohumları olan Elşən və Şövqi Akif Çovdarovun göstərişi ilə saxlanılıb. Onlara MTN-də fiziki təzyiq olunub, döyərək, işgəncələr verilib. Onlardan T.Əhmədovun əleyhinə ifadələr almağa çalışıblar.

Hətta Elşən Tağıyevin MTN-dən ağır kəllə-beyin travması diaqnozu ilə Mərkəzi Klinikaya yerləşdirildiyi deyilir.

Nəhayət, Tağı Əhmədov məcburən 3 milyon manatı verməyə razılaşıb. Onun oğlu Ruslan və qardaşı oğlu Əli 1,2 milyon dollar, 1,5 milyon avro və 300 min manat pulu qara idman çantasında 2014-cü ilin aprel ayında Bakıda A.Çovdarova məxsus mənzillərin birində şəxsən onun özünə veriblər.

T.Əhmədov A.Çovdarovun həbsindən sonra aparılan araşdırmalar zamanı istintaqda dindirilib və hadisəni danışıb. Müstəntiqin ondan "Siz 3 milyon manatı necə əldə etmişdiniz ki, Akif Çovdarova bu məbləğdə pulu ödəyə bildiniz" sualına "40 illik əmək haqqımdı, yığıb saxlamışdım" deyə cavab verib.

Məhkəmədə ilk olaraq Tağı Əhmədovun qardaşı oğlu Şövqü Tağıyev ifadə verib. O, məhkəmədə sərbəst ifadə versə də istintaqa ifadələri arasında ziddiyyətlər olub.

**Vəkil Sadiq Rəsulov deyib ki, Şövqü Əhmədov MTN-ə tək çağırıldığını, dindirildiyini, qohumu Elşən Tağıyevi görmədiyini deyib:** "Amma istintaqa ifadəsində deyib ki, Elşənlə birlikdə gediblər. Şövqü fərqli ifadə versə də sonradan istintaqa ifadəsini təsdiqlədiyini deyib".

Tağı Əhmədovun qohumu Elşən Tağıyev də ifadə verib. Elşən Tağıyev Tağı Əhmədov metropolitenin rəhbəri olduğu dövrdə metro keçidlərindəki mağazalardan icarə haqlarını yığırmış.

Məhkəmədə hər iki şəxs - Şövqi Əhmədov və Elşən Tağıyev Akif Çovdarov və digərlərini tanımadıqlarını deyiblər. Onlar MTN-də döyülsələr də onları döyən şəxslərin kim olduqlarını bilmədiklərini deyiblər.

E.Tağıyev və Ş.Əhmədov onlardan MTN-də Tağı Əhmədovun əleyhinə ifadə almaq istədiklərini deyiblər. Belə ki, hər iki şəxsi məcbur ediblər ki, metro keçidlərindəki mağazalardan gələn gəlirin tamamının Tağı Əhmədova çatdığını desinlər. Şövqi Əhmədov məcbur qalıb əmisi Tağı Əhmədovun əleyhinə ifadə verib. "MTN-də döydülər, məcbur qalıb bu məzmunda ifadə verdim" - deyə Şövqü Əhmədov ifadəsində deyib. Amma Elşən Tağıyev keçidlərdəki mağazalardan gələn gəlirlərin dövlət büdcəsinə köçürüldüyünü deyib.

Növbəti məhkəmə prosesi dekabrın 28-nə təyin edilib. Həmin prosesdə Tağı Əhmədovun ifadə verəcəyi gözlənir.

Qeyd edək ki, A.Çovdarov Tağı Əhmədovun iddialarını rədd edib. Vəkili vasitəsilə musavat.com-a müraciət yollayan A.Çovdarov deyir ki, Tağı Əhmədovun oğlanlarından birinin aeroport yolunda qəza törətməsi və bəzi qohumlarının qanunsuz əməlləri ilə bağlı hüquq-mühafizə orqanlarında kifayət qədər məlumatlar var. A.Çovdarov iddia edir ki, həmin məlumatlardan istifadə edərək T.Əhmədovu ona qarşı danışdırırlar.

❑ **İlkin MURADOV**

# Rəhim Qazıyevlə Surət Hüseynovu ittiham edən prokurorun müəmmalı ölümü



## Qətlə yetirilən **Qaraxan Ağayevin oğlu:** "Atamı başından küt alətlə vurublar, Xızının keçmiş polis rəisindən şübhələnirik"

**Vaxtilə Xızı rayon prokuroru olmuş, həmçinin sabiq müdafiə naziri Rəhim Qazıyevin, eks baş nazir Surət Hüseynovun və digər siyasilərin məhkəmələrində dövlət ittihamçısı kimi çıxış etmiş 1958-ci il təvəllüdlü Qaraxan Zilfi oğlu Ağayev dekabrın 9-da Sabunçu rayonu, Bakıxanov qəsəbəsində başından ağır dərəcəli bədən xəsarəti alıb. Onu 3 saylı şəhər klinik xəstəxanasına çatdırıblar. Mətbuatda bu haqda yayılan ilkin məlumatlarda məşhur prokurorun avtoqəza zamanı ağır xəsarət aldığı qeyd olunub və o, deputatlığa keçmiş namizəd kimi təqdim olunub.**

"Yeni Müsavat"a daxil olan məlumatda isə məşhur prokurorun başından aldığı xəsarətlərin heç də avtoqəza zamanı əmələ gəlmədiyi, digər şəxs tərəfindən qətlə yetirildiyi bildirilir. Apardığımız araşdırma zamanı öyrənə bildik ki, Q.Ağayev hadisə baş verən gün evindən vaxtilə Xızı Rayon Polis Şöbəsinin rəisi olmuş Nizami Tağıyevlə görüşmək üçün çıxıb. Q.Ağayev Qaradağ rayonu ərazisində yaşayıb, N.Tağıyevlə görüşmək üçün Sabunçu rayonu, Bakıxanov qəsəbəsinə gəlib. Sonradan isə onu başı əzilmiş şəkildə xəstəxanaya çatdırıblar.

Koma vəziyyətində olan Q.Ağayev 11 gün sonra xəstəxanada dünyasını dəyişib. Hazırda onun ölümü ilə bağlı Sabunçu Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 126-cı (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə cinayət işi başlanıb.

N.Tağıyevin iş üzrə çağırılıb dindirildiyi, saxlanılması xəbəri də var. Qeyd olunur ki, keçmiş prokurorun ölümü üzrə cinayət işi başlanmış 126-cı maddə 120-ci maddəyə - qəsdən adam öldürmə - maddəsinə tövsif olunacaq.

**Q.Ağayevin oğlu İldırım Ağayevi arayıb, atasının ölümü ilə bağlı fikirlərini öyrəndik.**

**O bildirdi ki, atasının ölümündə əsas şübhələndiyi şəxs N.Tağıyevdir:** "Atam həmin gün evdən Nizami Tağıyevlə görüşmək üçün çıxıb. Nizami Tağıyev atama zəng edib, görüşə çağırıb. Atam vaxtilə Xızı prokuroru, Nizami Tağıyev isə polis rəisi olub. Atamı xəstəxanada gedib gördük. Saytlarda yazmışdılar ki, guya atamı maşın vurub. Bir başqa saytda da yazılmışdı ki, guya atam yıxılıb. Əslində isə atam yıxılmayıb, avtoqəza da olmayıb. Nə baş verdiyini Nizami Tağıyev bilir. O da bizdən qaçır, gizlənir. Dekabrın 24-də Sabunçu Rayon Prokurorluğunun müstəntiqi ilə danışdım. Dedi ki, Nizami Tağıyevi tapıb dindirmişik. Başımız hüzrə qarışıb deyə ətraflı nə baş verdiyini öyrənə bilmədim. Bilmədim ki, Nizami Tağıyevi saxlayıblar, ya yox".

**Onun sözlərinə görə, atasının ölümündən sonra məhkəmə tibb eksperti rəy verib ki, Qaraxan Ağayevi başından küt alətlə vurublar:** "Atam 11 gün komada qaldı. 12-ci gün dünyasını dəyişdi. Dekabrın 9-da atam evdən çıxanda üstündə 1100 manat pul olub. Amma xəstəxanaya aparılandan sonra üstünə baxış keçirilib, nə pul olub, nə də telefon. Onun arxa cibində əlavə 320 manat olub. 1100 manatı götürən düşünməyib ki, atamın arxa cibində əlavə pulu ola bilər. Ona görə də xəstəxanada ciblərinə baxanda həmin pul üstündə olub. Bu gün 1100 manat pulu, telefonu kimin götürdüyü araşdırılır".

**İ.Ağayev pulun və telefonun kimin tərəfindən götürüləcəyi haqda fikirlərini də bizimlə bölüşdü:** "Bütün şübhələrim gəlib Nizami Tağıyevin üzərində dayanır. Ona görə ki, 15 il bundan əvvəl atam vəzifəsini həmin adamın ucbatından itirib. 15 ilin tamamında həmin adam yenə də peyda olub, indi də atam həyatını itirdi. Hadisə baş verən gün səhərə qədər atamı axtardıq, 1 sutkadan sonra atamı xəstəxanada tapdıq. Halbuki atamı xəstəxanaya aparan Nizami Tağıyev olub. Nizami Tağıyev əvvəl əmimə demişdi ki, Sabunçu məhkəməsindən çıxanda guya atamın ayağı sürüşüb yıxılıb, başı pilləkənin mərmərinə dəyib. O biri əmimə deyib ki, guya pilləkənə deyil, başı pilləkənin tutacağına dəyib. Mənə də tamam başqa versiya dedi - atan qəhqəhə çəkib başı üstə yerə yıxıldı, başı mismara keçdi. Atam xəstəxanaya gətiriləndən sonra 3 dəfə əməliyyat olunub. Həmin əməliyyatı edən həkimdən atamın başından aldığı xəsarətlə bağlı soruşdum. Həkim illərin cərrahıdır, dedi ki, bu xəsarət yıxılmaq nəticəsində əmələ gəlməyib. Yıxılan adam başından belə bir xəsarət alması üçün ən azından 3-cü mərtəbədən başı üstündə yerə dəyməlidir".

**İ.Ağayev atasının başından beşbarmaqla vurulduğunu istisna etmədiyini deyir:** "Əgər hadisə belə olubsa, yəni atam 3-cü mərtəbədən yıxılıbsa belə, onun bədənində başqa xəsarətlər, sınıqlar olmalıydı. Atamın isə xəsarəti yalnız başındadır. Həkim dedi ki, atanı beşbarmaqla və ya ondan da ağır bir küt alətlə arxadan vurublar".

**İldırım Ağayev vaxtilə atasının Xızı rayon prokuroru vəzifəsindən çıxarılmasında Nizami Tağıyevin xüsusi rolunun olduğunu da bildirib:** "15 il əvvəl Nizami Tağıyev Xızı Rayon Polis Şöbəsinin rəisi olanda götürüb Respublika Prokurorluğuna gizli məktub yazmışdı ki, rayon prokuroru - yəni atam cəbhəçilərə rayonda qonaqlıq verib. Onun yazdıqlarına görə də atamı işdən çıxartdılar. 1 ay əvvəl isə özü axtarıb atamı tapmışdı. 2 dəfə görüşüblər, 3-cü dəfə də atamın başına belə bir iş gəlib".

**İ.Ağayev atasının borc verdiyi şəxslər tərəfindən öldürülməsi haqda yayılan məlumatlara da münasibət bildirdi:** "Atamın kimsəyə borcu yox idi. Ona borclu olan şəxslər olub. Atam Badamdardakı evimizi 2006-cı ildə banka girov qoyub pul götürüb, bir tanışına vermişdi. Həmin şəxsə pul vəzifəyə getmək üçün lazım idi. Sonradan vəzifə məsələsi alınmadı, həmin adam da pulun bir hissəsini, təxminən 100 min manatdan çoxunu qaytarmışdı. Atamın həmin adamlarla problemi yox idi. Onların Nizami Tağıyevlə əlaqələri də olmayıb ki, düşünək ki, bəlkə bu ölüm işində nəsə maraqlı olan var. Atamın başına bu iş gələndə borc verdiyi adam ölkədə olmayıb. Xaricdən qayıdıb gəlib öz rayonuna, biləndə ki, belə bir iş olub, gəlib bizə başsağlığı verib. Atamın başına nə gəlibsə, belə düşünürük ki, Nizami Tağıyev bilir".

**İ.Ağayev atasının Sabunçu Rayon Məhkəməsi ilə heç bir əlaqəsinin olmadığını da diqqətə çatdırıb:** "Nizami Tağıyev bizə deyəndə ki, hadisə Sabunçu məhkəməsinin qarşısında olub, biz araşdırdıq ki, hadisə tamam başqa yerdə olub. Şahidlər də dedilər ki, biz bir kişinin yerə oturub başından qan fısqırdığını görmüşük. Onun vurulub-vurulmadığını görməyiblər. Həmin vaxt Nizami Tağıyev də orada olub. Ora polislər də gəlib. Nizami Tağıyev polisə deyib ki, guya atamı tanımır. Sonradan isə boynuna alıb ki, bir yerdədirlər, polis də ona deyib ki, oturt maşına, apar xəstəxanaya təhvil ver. Sabunçu rayon 3 saylı Xəstəxananın qəbul şöbəsində Nizami Tağıyevdən xəstəni gətirən şəxs kimi ad-soyadını soruşublar, ad-soyadını gizlədib, çıxıb gedib. Hadisə dekabrın 9-da olub. 13-də isə Nizami Tağıyev mənə zəng etdi, sual verdi ki, atan ayılıbmı. Mən də ondan soruşdum ki, telefon nömrəmi kimdən alıb. Dedi ki, dekabrın 8-də atanla görüşəndə telefon nömrəni mənə verib. Mən də ona dedim ki, atamın elə xasiyyəti yox idi ki, mənim nömrəmi kiməsə versin. "Ötən müddətdə mənə niyə zəng eləmədin" sualını Nizami Tağıyevə verdim. Telefonu söndürdü. Bu günə qədər də telefonuna zəng çatmır. Sonradan müstəntiqin yanında boynuna alıb ki, atamı xəstəxanaya aparan özü olub. Boynuna almadığı 2 şey var - pul və atamın telefonu. Telefonla bağlı deyir ki, guya atam telefonu yerə çırpıb sındırıb. Atamı tanıyanlar bilir ki, o, hətta əsəbiləşsə də heç vaxt telefonunu yerə vuracaq qədər səbrsiz deyildi. Xəstəxananın həyətində Nizami Tağıyevə sual verdim ki, atam niyə hirslənmişdi? Dedi ki, bilmir və qaçıb getdi. Sonra da bizdən gizlənirdi. Bunu müstəntiqə də demişəm. Atamı vurublarsa da, yıxıblarsa da bunu Nizami Tağıyev bilir".

**İ.Ağayev atasının vaxtilə çıxdığı işlərə görə xəsarət yetirilməsi haqda məlumatlara da aydınlıq gətirib:**

"Atamı tanıyanlar bilir ki, o, düşmənli adam deyildi. Atam Rəhim Qazıyevin, Surət Hüseynovun proseslərində dövlət ittihamçısı olub. Onlar da türmədən çıxandan sonra gəlib atamla görüşdülər. Dedilər ki, işdə kimsə dövlət ittihamçısı olmalıydı. Atamdan heç bir narazılıqlarının olmadığını dedilər. Sonradan da münasibətləri vardı".

**Məsələ ilə bağlı Sabunçu Rayon Prokurorluğu ilə əlaqə saxladıq. Prokurorluqdan bildirdilər ki, hazırda faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir. Əlavə heç bir şərh verilmədi.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 289 (6610) 27 dekabr 2016

# Şeyxin məşhur adamı üzə çıxdı

## Hacı Mazan kimi tanınan Ramazan Zeynalov Paşazadələrin şəriki olmuş Müğdət Həşimovun məhkəməsində ifadə verdi

**Dekabrın 26-da Paşazadələrin şəriki olmuş Müğdət Həşimovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə şahid qismində Şeyxin yaxın adamı Hacı Mazan kimi tanınan Ramazan Zeynalov ifadə verib. O, həbs edilən Müğdət Həşimovun vəkili Elçin Sadıqovun vəsatəti ilə məhkəməyə gətirilib.**

M.Həşimov Cavanşir Paşazadənin himayəsində olan "Aygün-C" MMC-nin təsisçiləri ilə 2012-ci ilin dekabr ayının 6-da rəsmi qaydada müqavilə bağlayıb. Müqavilənin şərtlərinə görə, M.Həşimovla iş birliyində Allahşükür Paşazadənin həyat yoldaşı və oğlu, Cavanşir Paşazadənin qızı və kürəkəni olub. Ancaq M.Həşimova cinayət işi açılarkən zərərçəkmiş kimi Hacı Mazan tanınıb.

**Dekabrın 26-da baş tutan məhkəmədə vəkilin suallarını cavablandıran Hacı Mazan M.Həşimovla 2012-ci ildə Masallı rayonunda tanış olduğunu deyib:** "Obyekti təmir etdirmişdim, avadanlıqlar olmadığı üçün boş idi. Bankdan 700 min kredit götürüb Müğdətə verdim ki, tibbi aparatlar alıb oranı klinika kimi işlətsin. Orada banka 7 min vermişdim, 10 min də klinikanın ventilyasiya işini görən ustaya verildi. Həmin pulu Müğdətə notarius qaydasında verdim, özü də imzaladı. Müğdət işlərlə məşğul oldu, mən də müalicə üçün Almaniyaya getdim. Bir ildən sonra qayıtdım, elə həmin klinikaya getdim. Qadın işçilər qabağımı kəsib dedilər ki, 3 aydır maaş almırıq. Mən də pulların necə olduğunu bilmək üçün Müğdətlə görüşdüm. Bizə aldığı avadanlıqlara dair bir siyahı verdi, onu da 3 dəfə dəyişdi. Mən də Adil Mahmudovu çağırdım, audit yoxlama apardılar. Cavad Cavadov da avadanlıqların qiymətlərini internet üzərindən araşdırırdı. Həmin vaxt Müğdət yoxa çıxdı, kredit götürdüyüm "VTB Bank" mənim üstümə düşdü. Müğdəti tapdım, dedi, 20 min manat ver, verdim banka ödədi. Sonra gəlib dedi ki, "Razin"də evim var, sənədləşməni həll edək, evi keçirək sənin adına, sat banka pulu ödə. Səfiqulu Alıyev evi almaq istəyirdi, 67 min 200 manat verdi, mən dedim, 70 mindən aşağı olmaz. Müğdət özü qalan 2 min 800 manatı verdi. Həmin 70 mindən əvvəl ona verdiyim 20 mini qaytardı. Sonra da bəlli oldu ki, evi Arif adlı vəkilə də satıb, onu da aldadıb. Biz də Müğdəti axtarmağa başladıq, dedilər Moskvadadır, tapa bilmədik, məcbur olub şikayət etdim".



**M.Həşimovun vəkili Elçin Sadıqovun suallarını cavablandıran Hacı Mazan deyib ki, nümayəndəsi İsmayıl Abbasov klinika ilə bağlı bütün işlərdə iştirak edib və sənədlərə imza atıb. Hacı Mazan vəkilin suallarına cavab olaraq bildirib ki, klinikadakı tibbi avadanlıqlara özü də baxış keçirib:** "Elə aparat var idi ki, 1996-cı ildə istehsal olunmuşdu. Müğdətin rentgen aparatını da məhkəmə icraçıları apardılar".

**Müğdət Həşimov Hacı Mazandan soruşdu ki, klinika fəaliyyət göstərdiyi halda niyə ora yoxlama və audit göndərilib? Hacı Mazan dedi ki, həmin zaman banka 72 min borc olduğu üçün klinika bağlı olub. Müğdət Həşimov isə bunun yalan olduğunu dedi:** "Burda heç kim ağzına gələni danışmamalıdır. Hər şey sənəd və sübutladır. Bankda bir saat belə olsun gecikmə olmayıb. Ödənişlər vaxtı-vaxtında olub. Mən işlədiyim vaxtda ödənişlər vaxtında edilib. Qəbzlər də istintaq materiallarında var. Mən 2 il yaxındır həbs edilmişəm. Borclar yığılıbsa, onlar ödəyibsə, mənim günahım nədir ki?"

**Məhkəmədə əlavə şahid kimi Cavad Cavadov da ifadə verdi. O, tibb avadanlıqları sahəsində mütəxəssis kimi şəriklərin qalmaqallı klinikasında aparılan audit yoxlamasında iştirak edib. C.Cavadov dedi ki, klinikada aparılan audit zamanı yalnız avadanlıqları siyahı üzrə müəyyən edib və istehsal tarixlərini yoxlayıb:** "Biz, sadəcə, təqdim edilən siyahıda yazılan avadanlıqların klinikada olub-olmamasını yoxladıq. Həm də avadanlıqların istehsal tarixlərinə baxırdıq".

**Şahid deyib ki, bəzi avadanlıqların üzərində istehsal tarixi əllə yazılıbmış:** "Avadanlıqlarda istehsal tarixi istehsal olunan zaman çox vaxt müəssisələrə yazılır. Ancaq yazılmayanlar da olur. Bu cür avadanlıqların üzərində kod da olur. Həmin kod vasitəsilə istehsalçı müəssisədə istehsal tarixini öyrənmək olur. Həm bu avadanlıqlar, sadəcə olaraq, sifariş əsasında istehsal olunur".

C.Cavadov klinikaya baxış keçirərkən 1987-ci il istehsalı olan avadanlıq olduğunu da bildirdi.

**Müğdət Həşimov şahidin bu dediyinə cavab verdi:** "Düzdür, Rusiya istehsalı olan sterilizə aparatını almışam. Yeni aparat idi. Bunu almaqda məqsədimiz bu idi ki, digər aparatlar işə yaramadı. Bu aparat da təmiz idi və işimizi görürdü. Bütün yoxlamalar da buna baxıb. Sizin də imzaladığınız audit yoxlamasında qeyd edilir ki, qiymətlərdə şişirtmə var. Bunu haradan müəyyən etdiniz? Mən avadanlıqların qiymətini 246 min göstərmişdim. Amma audit 162 min müəyyən edib. 82 minlik fərq var. Guya qiymətlər bu qədər şişirdilib. Siz qiymətləri haradan bildiniz?"

Cavad Cavadov avadanlıqların qiymətini internet resuslarından axtardıqlarını və bazar qiyməti ilə hesablandığını dedi. Müğdət Həşimov söylədi ki, audit, yoxlama 82 minlik fərq müəyyən etsə də, ona qarşı ittihamda 193 minlik avadanlığı mənimsəmək irəli sürülüb.

Bundan sonra məhkəmə təxirə salınıb.

Qeyd edək ki, M.Həşimov 2015-ci ildə Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə) maddəsi ilə təqsirli bilinərək həbs olunub. Sonradan onun barəsində 178.3.2 (dələduzluq) və 213.1 (vergidən yayınma) maddələr ilə də ittiham irəli sürülüb.

Tərəflər arasında şərikliyin şərtinə görə "Bank VTB"dən 700 min manat götürülüb. Həmin pulun banka qaytarılması isə 2018-ci ilə qədər M.Həşimovun öhdəliyində olub.

M.Həşimov klinikadan qazandığı pulla həmin borcu ödəməli imiş. Bankın pulu ödənilib bitdikdən sonra əldə olunan qazanc Cavanşir Paşazadə ilə M.Həşimov arasında bölünməli imiş.

❑ **İlkin MURADOV**

# Ölkənin qaz problemi - vətəndaş soyuqdan donur, rəsmilər isə...

## Ekspertlər bildirirlər ki, qazın verilməsi bilərəkdən məhdudlaşdırılır, ölkənin hasilatı azalıb, xarici öhdəliklər isə artıb

**Ölkənin bir sıra bölgələrində təbii qazın verilməsində problemlər var. Xüsusən Bakı ətrafında, Abşeronda da problem ciddidir. Bakıətrafı qəsəbələrdə qazın verilməsində yaranan məhdudiyyətlər, xüsusən qazın təzyiqinin də aşağı olması qışın soyuğunda vətəndaşları çıxılmaz duruma salıb. Maraqlıdır, bunlar təkcə texniki problemlərdir, yoxsa aidiyyəti qurumlar tərəfindən bilərəkdən yaradılır? Bu sual qazsız qalan evlərdəki vətəndaşları düşündürür. Ekspertlər daha çox bunda hökumət qurumlarının maraqlı olduğunu bildirirlər. Rəsmi qurumlar isə problemin olmadığını iddia edirlər. Problem isə hətta neftlə zəngin Balaxanı qəsəbəsində də ciddidir.**



Balaxanı sakinləri redaksiyamıza müraciətlərində qazın axşam saatlarında kəsildiyini, verilən müddətdə isə aşağı təzyiqlə olduğunu bildirirlər. Onların sözlərinə görə, aidiyyəti qurumlara etdikləri davamlı müraciətlər nəticəsizdir: "Qəsəbədə qazın təzyiqi axşam saatlarından azalır. Kombilər işləmir, camaat qalır İran peçinin ümidinə. Amma təzyiq o qədər azdır ki, İran peçləri də işə düşmür. Qazın təzyiqi az olduğuna görə, işləyən kombilər də daha çox qaz yandırmağa başlayır, qaz çox gedir. Təzyiqin aşağı olması həm də camaatın birbaşa cibinə girməkdir, cibinə əl uzatmaqdır, son qəpik-quruşu vətəndaşın əlindən almaqdır. Normal təzyiq versələr, kombilər də normal rejimdə işləyər. Faktiki, təzyiqi azaltmaqla camaatın cibinə girirlər. Bütün bunlar Qafqazda neft-qaz tapılan ilk qəsəbədə baş verir. Biz məcburuq ki, artıq "Azəriqaz"dan Balaxanı qəsəbəsinə odun göndərməsini xahiş edək, başqa çarəmiz yoxdur. Evdə uşaqlar soyuqdan donurlar. Dövlət orqanlarına müraciət etmişik, xeyri yoxdur". Bunlar Balaxanı sakinlərinin ümumiləşmiş şikayətidir.

**Ekspert Natiq Cəfərli isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, qazın verilməsində məhdudiyyətlərin olmasının bir neçə səbəbi var:** "Texniki səbəblər də var, görülən işin keyfiyyət məsələsi var. Borularla bağlı problemlər olur, təmir olunmağa ehtiyac yaranır. Bir də Azərbaycan hökuməti öhdəliklər götürüb, xarici dövlətlər qarşısında qaz öhdəliklərimiz var. 500 milyon kubmetr qazın hasil olması öhdəliyi var, Türkiyə ilə müqavilələr var. Bu müqavilələri, öhdəlikləri yerinə yetirmək əlavə xərc istəyir. Rəsmi rəqəmlər göstərir ki, hasilatda problemlər yaşanır. Tək SOCAR-da hasilat 33 faiz aşağı düşüb. Hasilatın azalması fonunda öhdəliklərin artması Azərbaycanı yerli istehsalçılarla bağlı qaz verilişinə müdaxilə etməyə məcbur edir. Azərbaycan öhdəliklərini yerinə yetirmək üçün daxili istehlaka müəyyən dərəcədə qənaət etmək istəyir, bunu qarşısına məqsəd qoyub".

**"Azəriqaz" rəsmisi İbrahim Kərbalayev isə musavat.com-a bildirib ki, onlara qaz problemi ilı bağlı son günlər hər hansı şikayət edilməyib, müraciət olmayıb:** "Ünvanı deyin, araşdıraq. Ümumilikdə hər hansı problem yoxdur. Bakıda və Bakıətrafı qəsəbələrdə hər hansı məhdudiyyət yoxdur. O cümlədən bölgələrdə də problem yoxdur. Qaz təsərrüfatında hər hansı məhdudiyyət yaranmayıb. Hansı ərazidə çatışmazlıq olursa, bizə müraciət edəndə, gedilib baxılır, aradan qaldırılır. Hazırda tərəfimizdən hər hansı fakt qeydə alınmayıb".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 289 (6610) 27 dekabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Qarabağda "tufanqabağı sakitlik" - düşmən fürsət gözləyir

## Azərbaycanın sarsıdıcı silahlar alması düşməni təlaşlandırıb; növbəti təxribatlar istisna deyil; ekspertlər son durumu şərh edirlər

**Bir müddət öncə Azərbaycanın İsrail istehsalı olan "Dəmir günbəz"lər alması, həmçinin "İldırım" raket komplekslərindən atışların yerinə yetirilməsi cəbhə xəttində də ənənəvi təxribatlara ara verilməsinə səbəb olub. Müdafiə Nazirliyinin məlumatına görə, ötən həftə də təlimlər davam etdirilib.**






Bildirilir ki, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının döyüşə hazırolma səviyyəsinin yoxlanılması məqsədilə qoşunların kompleks hazırlığı çərçivəsində modernizə edilmiş bir neçə "S-125" zenit-raket qurğularından növbəti döyüş atışları icra edilib. Komplekslərdən atılan səmərəli atışlar nəticəsində bütün hədəflər aşkar edilərək məhv edilib. Təlimdə hava məkanını pozan şərti düşmənin aşkarlanaraq onun haqqında informasiyanın döyüşü idarəetmə məntəqəsinə çatdırılması və real atəş zərbələri ilə hədəflərin dərhal məhv edilməsi tapşırığı uğurla yerinə yetirilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən döyüş hazırlığı təlimlərində iştirak edən şəxsi heyətin praktiki vərdişləri və atışlarının nəticələri yüksək qiymətləndirilib.

Ermənistana hərtərəfli dəstək verən Kreml isə işğalı stimullaşdırmaqda davam edir. "Rusiya Azərbaycana "İsgəndər" raketləri satmayacaq", - deyə Ermənistanın tert.am portalına müsahibəsində Rusiya Dövlət Dumasının deputatı, general Viktor Vodolaski bildirib (modern.az). Onun sözlərinə görə, vaxtilə Rusiya Dövlət Dumasının Müdafiə məsələləri üzrə komitəsinin sədr müavini olduğundan çox şeydən xəbərdardır.

"Buna görə də mən çox şeyi yaxşı bilirəm. Bu məsələ müdafiə, təhlükəsizliklə, Rusiyanın hərbi sənaye kompleksi ilə bağlıdır. Biz "İsgəndər" raketini yalnız bir ölkəyə satmışıq - o da Ermənistandır. "İsgəndər" başqa heç bir ölkəyə satılmayacaq", - deyə o əlavə edib. Vodolaski qeyd edib ki, Rusiya Azərbaycana hücum xarakterli silahlar satmır.

Deputat Ermənistanın Rusiyanın icazəsi olmadan "İsgəndər" raketlərindən istifadə edə bilməyəcəyi haqda fikirlərə də münasibət bildirib. Onun sözlərinə görə, raketlər Ermənistana satıldığından bu, artıq həmin ölkənin mülkiyyətidir.

***

Göründüyü kimi, Rusiya generalı açıq şəkildə düşmənə dəstək mesajı verib, Ermənistanı narahat olmamağa çağırış etmiş olub.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a dedi ki, Rusiyanın Ermənistanda "İsgəndər" raketlərini yerləşdirməsi xəbərinin yayılması Azərbaycan hakimiyyətini və cəmiyyətini narahat etdi:** "Çünki biz Rusiyadan silahı pulla alırıq, bunun müqabilində Moskva silahları Ermənistana peşkəş verir. Bunun nəticəsində rəsmi Bakı tərəfdaş ölkələr olan Pakistan və İsraillə hərbi əməkdaşlığı genişləndirmək üçün danışıqları intensivləşdirib. Azərbaycan artıq İsraildən "Dəmir günbəz" raketdən müdafiə sistemini alıb. Əslində hadisələrin bu istiqamətdə inkişafı Rusiyanın maraqlarına cavab verməməlidir. Rusiyanın baş naziri Dmitri Medvedyev dekabrın 15-də Rusiyanın televiziya kanallarına geniş müsahibəsində demişdi ki, bütün çətinliklərə baxmayaraq Rusiya gələn il bütün indikatorlar üzrə inkişaf edəcək və buna misal olaraq artan silah satışını göstərmişdi. Medvedyevin sözlərinə görə, bu il 17 milyard dollar civarında silah satan Rusiya gələn il bu rəqəmi 20 milyard dollara çatdırmağı planlaşdırır. Azərbaycan Rusiyanın əsas silah alıcılarındandır. Ancaq Moskva bizə "İsgəndər" raketlərini satmayacaqsa, biz oxşar kompleksi başqa ölkədən alacağıq və milyardlarla dollar gəlir Rusiyaya yox, həmin ölkəyə, o cümlədən İsrailə çatacaq. İsrailin baş naziri Benyamin Netanyahudan dərhal sonra Bakıya Rusiya baş nazirinin müavini Dmitri Roqozin səfər etdi. Roqozin rəsmi Bakının əsas sualına cavab verməli idi: Rusiya Ermənistanda yerləşdirdiyi "İsgəndər" raketlərini Azərbaycana satmağa hazırdırmı? Görünür, Roqozin bu suala cavab verə bilməyib. Çünki "İsgəndər" raketlərinin Azərbaycana satılıb-satılmaması yalnız Roqozindən asılı məsələ deyil. Bununla bağlı Rusiya hakimiyyətinin kollektiv qərarına ehtiyac var. Ancaq əgər Roqozindən başda oturanlar "İsgəndər" raketlərini Azərbaycana satmayacaqlarsa, bu, həm Rusiya-Azərbaycan münasibətlərinə mənfi təsir edəcək, həm də rəsmi Bakı istər-istəməz başqa ölkələrinin silah bazarına yönəlmək məcburiyyətində qalacaq".

**Hərbi ekspert Üzeyir Cəfərov isə işğalçının ehtiyatlandığını təsdiqlədi. Ancaq bunun "tufanqabağı sakitlik" olmasını da istisna etmədi:** "Ermənistanın gündəlik mətbuatına baxıram və hiss olunur ki, bədnam qonşularımızı Azərbaycanın İsraildən "Dəmir günbəz" raketdən müdafiə sistemini alması xəbəri çox susdurub. Sentyabrdan bu günə guruldayan politoloq və ekspertlər nədənsə gözə dəymirlər. Danışanlar da çalışırlar ki, bu mövzuya səthi toxunsunlar. Doğrudur, cəbhədə zahiri nisbi sakitlik mənzərəsi görünsə də, əslində qoşunların təmas xəttində çox böyük gərginlik hökm sürür. Atəşkəs hər gün pozulur. Yeni il ərəfəsi sözsüz ki, təxribatların olması gözləniləndir. Azərbaycanın "Barak-8" raketlərini də nümayiş etdirməsi düşmənlərimizin əhval-ruhiyyəsinə təsirsiz ötüşməyib".

**Amma Ü.Cəfərov hesab edir ki, yaxın vaxtlarda yenə çox ciddi qarşıdurmanın şahidi olacağıq:** "Ermənistan cəbhənin ön xəttinə xeyli sayda canlı qüvvə və silah-sursat, ağır texnika cəmləyib. Ona görə də Müdafiə Nazirliyimiz yəqin ki bunları izləyir və vəziyyətə adekvat addımlar planlaşdırır. Düşməndən istənilən an yaramazlıqlar gözləmək mümkündür və adətən ilin bu vaxtı onlar daha çox aktivlik nümayiş etdirirlər".

Yeri gəlmişkən, Serj Sərkisyan Qarabağa son səfərindən sonra müharibə hazırlığı barədə tapşırıq vermişdi. Bu isə savaşın hər an başlaya biləcəyini deməyə imkan verir. Düşmən apreldə uduzduğu mövqeləri qaytarmaq üçün fürsət gözləyir...

***

"Qarabağ cəbhəsində müharibə riski hər gün var. Bu risk zamandan daha çox regionda baş verən proseslərdən, status-kvonu qoruyub saxlamağa çalışan güclərin maraqlarından, Ermənistan hakimiyyətinin, daha dəqiq desək, Ermənistanı himayə edənlərin davranışlarından asılıdır".

**Politoloq Elçin Mirzəbəyli bu fikri "Yeni Müsavat"a Qarabağ münaqişəsi ilə bağlı situasiyanı şərh edərkən bildirdi. Qeyd edək ki, 2017-ci ildə Ermənistanda parlament seçkiləri keçiriləcək. Bu isə işğalçı ölkənin gündəmini tamamilə dəyişəcək:** "Son gəlişmələri, xüsusilə də eks-prezident Levon Ter-Petrosyanın səhnəyə çıxması, Xocalı qatilləri Robert Köçəryan və Seyran Ohanyanın öz tərəfdarlarını birləşdirməsi qarşıdakı dönəmdə gərgin siyasi mübarizənin şahidi olacağımızı deməyə imkan verir. Güman olunur ki, işğalçı ölkə məhz seçkiləri özü üçün prioritet hesab etdiyinə görə Qarabağ danışıqlarının növbəti raundundan imtina edib. Əslində düşmən ölkə ən müxtəlif ssenarilərlə Qarabağ məsələsini arxa plana keçirməyə, zaman qazanmağa çalışır".

**E.Mirzəbəylinin sözlərinə görə, işğalçı ölkə var gücü ilə status-kvonun saxlanmasına çalışır:** "ATƏT xarici işlər nazirlərinin Hamburqda keçirilən toplantısı və toplantı çərçivəsində düzənlənən "şam yeməyi formatı" əslində bir sıra məqamlara aydınlıq gətirdi. Bəlli oldu ki, Ermənistan hakimiyyəti prosesin seçkilərədək uzadılmasında maraqlıdır və bu müddət ərzində ölkə daxilində hər hansı bir ciddi müqavimət olmazsa, hərbi-cinayətkar rejim bu seçkiləri də Qarabağ amili üzərində quracaq".

**Lakin növbəti illərlə bağlı ümidsiz olmayan E.Mirzəbəyli hesab edir ki, 2017-ci ili daha öncəki illərdən fərqləndirə biləcək bir neçə mühüm amil var:** "Bunlardan birincisi, Bakıda əsası qoyulan Sülh platforması və bu platformaya qoşulan erməni fəallarıdır. Bu, işğal prosesinin başlandığı dövrdən üzü bu yana nəzərə çarpan ilk miqyaslı hadisədir. Digər amil Azərbaycan torpaqlarının işğalı prosesinin əsas fiqurlarından biri və münaqişənin həlli istiqamətində real addımlar atmaq istədiyi üçün hakimiyyətdən uzaqlaşdırılan, Ermənistanın indiki iqtidarının ən güclü və real alternativi Ter-Petrosyan və onun rəhbərlik etdiyi Erməni Milli Konqresinin seçkilərə "Sülh, barışıq, mehriban qonşuluq" şüarı ilə gedəcəklərini açıqlamasıdır. Ter-Petrosyanın Erməni Milli Konqresinin toplantısındakı geniş nitqində yer alan tezisləri nəzərə alsaq, sabiq prezidentin münaqişənin həlli ilə bağlı təkcə öz arzu və istəklərinə deyil, eyni zamanda reallıqlara söykənən çağırışlar etdiyini müəyyənləşdirmək olar".

**Politoloq xatırlatdı ki, son 25 ildə Ermənistanda keçirilən bütün seçkilərdə işğal altında olan Azərbaycan torpaqları ilə bağlı hərbi ritorika, qələbə eyforiyası və bu eyforiyadan qaynaqlanan iddialar üstünlük təşkil edib. Yəni opponentlər arasında başqa bir alternativ yanaşma olmayıb:** "Amma indi tamamilə fərqli situasiya yaranıb və Ermənistan cəmiyyətinə, dünyaya fərqli alternativ təqdim olunur. Bu alternativ Ermənistanın yeganə xilas yolu olduğu üçün daha cazibədar görünür. Ermənistandakı heç bir siyasi qüvvə müstəqil olmadığı kimi, Ter-Petrosyan da müstəqil deyil. Onun "münaqişənin açarının Rusiyanın əlində olması" barədə dediklərini də təsadüfi saymıram. Bu fikir Ter-Petrosyanın sülh və mehriban qonşuluq barədə söylədiyi fikirlərin təkcə ona məxsus olmaması barədə mesaj təəssüratı yaradır. Başqa bir önəmli amil Azərbaycanın hərbi potensialının güclənməsi, Azərbaycan-İsrail hərbi əməkdaşlığının Ermənistandakı "İsgəndər" eyforiyasını sıradan çıxarması, Moskvanın baş verənlərə münasibətdə nümayiş etdirdiyi loyallıq, Azərbaycan-Rusiya və Türkiyə-Rusiya münasibətlərində nəzərə çarpan yaxınlaşma ilə bağlıdır. Bütün bunlara kompleks şəkildə yanaşdıqda, qarşıdakı ildə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində real addımların atıla biləcəyini düşünmək olar".

**E.Mirzəbəyli qeyd etdi ki, Ermənistan daxilində ciddi kataklizmlərin baş verəcəyi də gözləniləndir:** "Bizim üzərimizə düşən isə ölkənin davamlı və sabit inkişafını təmin etmək üçün həyata keçirilən islahatları dəstəkləmək, həmrəy olmaq, dövlətimizin gücünə, xalqımızın potensialına inanmaqdır. 2017-ci il Azərbaycan torpaqlarının işğaldan azad edilməsi istiqamətində dönüş ili olacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 289 (6610) 27 dekabr 2016



# Türkiyə öz siyasətində nəyə düzəliş etməlidir?..

**Hüseynbala SƏLİMOV**

**Zaman yaraları unutdurur. Təxminən bir həftə keçəndən sonra A.Karlovun ölümü ilə bağlı məsələ bir qədər aydınlaşmış görünür - səfir artıq vətənində torpağa tapşırılıb, türk-rus birgə araşdırma qrupu isə məsələnin təfərrüatlarına varmağa çalışır.**

Əslinə qalsa, buna qədər də Türkiyədə iki böyük, özü də müdhiş terror hadisəsi olmuşdu - hər ikisi də dekabrın birinci yarısında...

Sözsüz, səfirə qarşı sui-qəsd bütün bu silsilə terrorlardan bir qədər kənarda dayanırdı, çünki diplomat, özü də çox yüksək ranqlı insan - səfir öldürülübdür!

Dərhal üzə çıxan ilk ehtimal bu oldu ki, kimlərsə Türkiyə ilə Rusiyanın arasını vurmaq istəyir.

Amma hələ ilk günlərdə - qətl baş verəndən bir az sonra yazmışdım ki, insidentin Türkiyə-Rusiya münasibətlərini korlayacağını düşünmürəm...

Ən azı ona görə ki, qəribə olsa da, hadisə ilə bağlı Rusiya mediasında indiyədək alışdığımız isterikanı görmədik. Gəl, bir fikir dərhal diqqətimizi cəlb etdi. Ruslar yazırdı ki, olayı Hələbə görə qisas kimi dəyərləndirmək lazımdır.

Demirik ki, burada mütləq son Hələb hadisələri ilə bağlı nəsə ola bilər və yaxud da olmalıdır.

Amma detal Rusiyanı başqa bir şeyə - özünün Suriyadakı missiyası haqda düşünməyə vadar edə bilərdi.

Rusiya Yaxın Şərqdə hansı "oyun"a girdiyinin fərqində olmalıdır. Mən doğrusu, xatırlamıram ki, "Şərq incə məsələdir!" deyimi hansı ölkənin adamlarına məxsusdur...

Daha doğrusu, yadıma gəlir ki, bunu sonuncu dəfə "Səhranın bəyaz günəşi" filmindəki yoldaş Suxovun dilindən eşitmişəm. Amma onu da bilirəm ki, Rusiyada Şərqi yaxşı biliblər və bu ölkənin gözəl şərqşünasları olub!

Şərq həqiqətən də incə məsələdir... İndi Suriyada hamı biri-birilə vuruşur. Bu isə həm də Rusiyanın "xidmət"idir. Amma gəl ki, özüm də düşünmürəm ki, səfirin ölümü Rusiya siyasətçiləri üçün "soyuq vanna" olacaq.

Onlar məşhur "təyyarə olayı" zamanı da müəyyən nəticələr çıxara bilərdilər. Gəl, bunu etmədilər və bu dəfə də etməyəcəklər, çünki tarix boyu Rusiya dövləti üçün qiymətsiz bir şey olub - o, da Rusiya insanıdı...

İndicə qeyd etdiyimiz "Hələb ehtimalı"dan savayı da ehtimallar meydana çıxdı və hətta diqqəti belə detal çəkdi ki, bizim azərbaycanlılar da təxəyyüllərini işə salıb öz ehtimallarını səsləndirdilər...

Dövriyyədəki ehtimallardan biri də Qərblə bağlı oldu. Prinsipcə, bu amil diqqətəlayiq ola bilərdi, hərçənd, bəzi ölkələrdə sanki Qərbi nədəsə suçlamaq üçün fürsət axtarırlar və təəssüf, Azərbaycan da belə ölkələrin cərgəsindədir...

Artıq bəzi detallar səslənib. Məsələn, Rusiya mediası elə həmin gün yazdı ki, guya səfirə atəş açan 15 iyul hadisələrindən sonra vəzifəsindən kənarlaşdırılanlardanmış...

Sonradan təkzib edilsə də, qəsdə görə məsuliyyəti İraqın bir hərbi qruplaşmasının öz üzərinə götürdüyü də deyildi. Amma hamı məsələdə sifarişçini axtarır və çox təəssüf, bəziləri bu rolda Qərbi və yaxud da ki, ABŞ-ı görür...

ABŞ da, Qərb də Rusiyanın bölgədəki missiyasından həddindən çox narazıdır və bunu gizlətmirlər də. Bir az da Türkiyə ilə bağlı narazılıqlar var və bu səbəbdən də istisna etmək olmaz ki, burada da kiminsə Rusiyanı cəzalandırmaq və yaxud da ki, Türkiyə-Rusiya münasibətlərini yenidən soyutmaq istəyi olsun. Amma bunun belə bir formada təzahür edə bilməsini güman etmirəm...

Düzdür, Qərblə, əsasən də ABŞ-la Türkiyə arasındakı münasibətlər çox da rəvan deyil. Amma bizə elə gəlir, bunun bir günahı da R.T.Ərdoğanın siyasətindədir...

Məsələ bundadır ki, Türkiyə prezidenti bəzən "kimin əmioğlusu olması"nı unudur. Türkiyə hələ NATO-nu tərk etməyib, hərçənd mənə elə gəlir ki, R.T.Ərdoğan coşub-daşaraq bir gün hətta bu məsələni də gündəmə gətirə bilər, çünki o, özü üçün elə müstəqilliyə can atır ki, həmin müstəqillik heç bir dövlətdə yoxdur - hətta Almaniya, İngiltərə, eləcə də ABŞ-ın özü də düşünülən qədər müstəqil deyillər...

Bunu böyük qüsur kimi də qəbul etmək lazım deyildir - hamı bir planetdə yaşayır, üstəlik də bütün ölkələri biri-biri ilə müəyyən hərbi və ya siyasi öhdəliklər bağlayır. Ona görə də bir daha deyirəm ki, Türkiyə hələ ki, NATO-nun üzvüdür və bu səbəbdən də R.T.Ərdoğan öz ölkəsinin kimin "əmioğlusu" olduğunu unutmamalıdır...

**Mətbuat səhifələrində tez-tez yüksək rütbəli məmurların, nazirlərin, deputatların iri həcmli məqalələrinə rast gəlirik. Bu məqalələr daha çox sosial-iqtisadi, siyasi mövzuda olur. Ən maraqlısı isə budur ki, həmin məqalələr heç də peşəkar jurnalist yazısından fərqlənmir.**

# Nazirlərin və deputatların məqalələrini kim yazır?

## "Əksər məmurlar yazılarını qonorar qarşılığında savadlı, ixtisaslı qələm adamlarına yazdırır"

Bəllidir ki, nazirlərin, yüksək rütbəli məmurların günləri müxtəlif tədbirlərdə, hər hansı iş prosesində keçir. Hələ onların bizneslərini və digər bu kimi əlavə işlərini də nəzərə alsaq, məqalə yazmaq üçün necə vaxt tapmaları xeyli təəccüb doğurur.

Lakin nisbətən media ilə sıx təmasda olan, Milli Məclisdə də hər iclasda çıxışlar etməsi ilə yadda qalan deputatlardan bir çoxu sosial şəbəkələrdə də aktivdirlər. Onlar ara-sıra sosial şəbəkələrdə statuslar yazaraq, müxtəlif məsələlərə öz münasibətlərini bildirirlər. Misal üçün deputat Fazil Mustafanı, Zahid Orucu, göstərə bilərik. Təbii ki, bu şəxslərin məqalə yazmaq qabiliyyətlərinin olmasına da çox az sayda şəxs şübhə edər.

Lakin elə məmurlar, deputatlar da var ki, onlar ildə bir dəfə danışmaqla belə, özlərini çətin vəziyyətə salırlar. Son zamanlar cəmiyyətdə qıcıq doğuran ifadələrinə görə qınanılan deputatları misal kimi göstərmək olar. Maraqlı məqam bundan ibarətdir ki, məhz həmin məmur və deputatların da iri həcmli yazılarına rast gəlmək olur...

İddia olunur ki, əksər hallarda altında nazirin imzası olan məqalələr həmin nazirliklərin strukturlarının statistikaları əsasında yazılır. Belə ki, hər bir struktur statistikanı təqdim etdikdən sonra bunlar bir nəfər tərəfindən məqalə şəklində yığılır. Son varianta isə nazir baxır və münasibətini bildirir.



Deputatlar və digər bir qədər kiçik ranqlı məmurlar isə məqalələri bəzi jurnalistlərə yazdırıb, altına imzalarını qoyurlar. Bu tipli məqalələrin də əksəriyyəti statistika və təriflərdən ibarət olur. Bu, jurnalist və məmur arasında sirr olaraq qalır.

**Adının açıqlanmasını istəməyən jurnalistlə söhbətimiz zamanı bildirdi ki, bir neçə məmura qonorar qarşılığında onlarla məqalə yazıb:**

"Məmurlar hər hansı bir hadisə ilə bağlı məqalə yazmağı söyləyib, öz tezislərini verirlər. Həmin tezis əsasında da məqalələr yazılır. Bu tezislər müxtəlif məsələlərlə bağlı ola bilir. Bəzi hallarda xarici siyasətlə, bəzi hallarda isə daxili məsələlərlə bağlı olur. Nazirlərin də bu cür sifarişləri olur. Onlar da öz sahələri ilə bağlı müəyyən bir statistikaya əsaslanan tezislər verirlər və məqalə yazdırırlar, yazının altına öz imzalarını qoyurlar. Bəzi hallarda heç nazirlərin özləri bu məqalələrə baxmırlar. Onların sifarişi qəbul edib redaktə edən işçiləri də olur".

Onu da qeyd edək ki, bu məqam təkcə Azərbaycanda rast gələnən hal deyil. Dünyada da bu kimi hallara rast gəlinir və başqasının adına hətta kitab belə yazılır. Bu yazıların, kitabların əsl müəlliflərinə isə "kölgə yazarlar" deyilir. Buna misal olaraq bir neçə fakta diqqət edək.

Türkiyədə aparılan araşdırmalarda bir sıra sahələr üzrə "kölgə yazar"lıq edən şəxslərin fikirləri alınıb. Məşhurların yerinə yazılar yazan Sarp Keskin bildirib ki, bu işdən pul qazanaraq yaşasa da, əslində işi doğru saymır. O hesab edir ki, əgər kiminsə yerinə kitab, məqalə yazırsansa, bu artıq sənin fikrin, dilin olur. Altında imzası olan şəxsin deyil.

**Siyasilərin sifarişi ilə onların yerinə kitablar, məqalələr yazan Kaan Göktaş isə söyləyib ki, bizə "satılmış qələm" deyirlər:**

""Kölgə yazıçılıq" bizdə xaricdəki qədər məşhur deyil. Tam tərsinə, bu işi edənlərə "satılmış qələm" deyilir. Ancaq düşünürəm ki, bu, ictimai medianın həyatımızda daha çox yer tutması ilə yayılacaq və qəbul ediləcək. "Kölgə yazar"lara müraciət edənlərin əksəriyyəti vaxtı az olan iş adamları, siyasətçilər və yazı yazmaqla arası yaxşı olmayanlardır. Adam var ki, çox yaxşı bir natiq olsa da, yazanda fikrini toplaya bilmir. Bu iki seqmentin də dərmanı bizik. "Kölgə yazar"lığın təməl qaydası gizlilikdir. Müştəriniz vəziyyəti açıqlamadığı müddətcə, insanlar yazılanları onun qələmindən çıxmış hesab edirlər. İşin əsası budur ki, adından yazı yazdığınız adamla söhbət etməlisiniz. Hər hansı bir mövzuda nə düşünür, nə deyir, nə reaksiya verir, daha o ağzını açmadan bilməlisiniz. Yoxsa yazılanlar süni qalar, özünü ələ verər" - deyə, siyasilərin "kölgə yazarı" bildirib.

❑ **Əli RAİS**

# "Müxalifət daha konkret qərarlar verəcək"

## Partiyalar ölkədəki durumu müzakirə edib

**Dekabrın 25-də ölkə müxalifətinin bir hissəsi ADP-nin qərargahında Azərbaycandakı son durumu müzakirə etdi. 10-dan çox siyasi partiyanın qatıldığı tədbirdə müxalifət liderləri ölkəmizdə cərəyan edən siyasi və iqtisadi yöndəki hadisələrdən öz narahatlıqlarını dilə gətirdilər.**

Tədbirdən öncə siyasi partiya liderləri gələn ildən başlayaraq, aksiyalara start verəcəklərini bildirsələr də, toplantının sonunda bu və ya digər istiqamətlərdə qəti qərarların qəbulunun şahidi olmadıq.

Tədbirin təşkilatçılarından olan AĞ Partiya başqanı Tural Abbaslı "Yeni Müsavat"a açıqlamasında bunları dedi: "Növbəti tədbirlə bağlı




qərar verilmədi. Çıxışlar oldu. Hər bir qurum lideri partiyasının və özünün mövqeyini ifadə etdi. Hər kəs narahatçılığını dilə gətirdi. Belə fikirlər səsləndi ki, etirazlar iclaslar və kütləvi aksiyalar formasında ola bilər. Prosesin davamlı olmasının vacibliyi vurğulandı. Əks halda, hakimiyyətin qarşısında müxalifət görmədiyinə görə istədiyini edə biləcəyi də qeyd olundu. Nəticədə Azərbaycanın çıxılmaz durumla üzləşəcəyi bildirildi. Yəqin ki, bu həftə tədbirdə iştirak edən partiyaların növbəti iclası keçiriləcək və daha konkret qərarlar üzərində müzakirələr gedəcək. Amma son tədbirimizdə qəti qərarlar verilmədi. Çox güman ki, tədbirdən sonrakı ilk iclasımızda bu barədə müzakirələr olacaq. Açıq havada aksiyalar olsun olmasın, bu tədbirlər davam etsin ya etməsin, yaxud hakimiyyətə hansı formada etiraz bildirilsin kimi istiqamətlərdə müzakirələr aparılacaq. Hazırda xüsusi bir qərarımız yoxdur".

Xatırladaq ki, bu, müxalifətin qiymət artımı ilə bağlı ikinci tədbiridir. Bundan öncə dekabrın 3-də siyasi partiyalar birlikdə qaz və işığın qiymətinin qaldırılmasını, eləcə də ölkədəki iqtisadi problemləri müzakirə etmişdilər.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 289 (6610) 27 dekabr 2016

**Rusiyaya qarşı törədilən terror aktlarının sayı son zamanlar sürətlə artaraq sual doğurur hamıda. İnsan düşünür: əcəba, bu ölkə əleyhinə gizli bir təxribat mərkəzimi fəaliyyət göstərir dünyada? Hadisələrin ardıcıllığı, rəngarəngliyi, vəhşiliyi, bəli, bizə belə düşünməyə hər cür əsas verir indi. Soçidəki təyyarə qəzasından sonra oxşar ittihamlar artıq açıq şəkildə söylənilib, bütün dünyanı ikiəlli silkələyir. Vəziyyət kritikdi. Kimsə, kimlərsə, şəxsən Vladimir Putinə, necə deyərlər, “qara əlcək” göndərib elə bil.**

# Rusiyaya qarşı gizli beynəlxalq təxribat qrupu iş başında - iki «TU-154»ün oxşar taleyi

## Təxminən 1 əsrdir Rusiyaya qarşı savaş aparan təşkilatın tərkibində azərbaycanlılar da olub; Saakaşvili ilə Kaçinskinin Tiflisdə Promoteyin şərəfinə ucaltdıqları abidə az sonra onlara baha başa gəldi










Növbəti təxribatın Soçidə - Rusiyanın Olimpiya paytaxtında baş verməyi, məncə, təsadüf sayıla bilməz. Deyəsən, Olimp zirvələrində tanrıların davası artıq başlayıb. İdman oyunları qaldı bu mübarizənin dinc dövründə. Mübarizənin qanlı dövrü başlayır indi. Hədəf, əvvəlki kimi, Promotey alovu, yeni dünya neft-qaz boru kəmərlərinin gələcək marşrut xətləridir.

Əsas ipucu da elə həmin Promotey rəmzindədir. Rusiyaya qarşı 100 ilə yaxındı fəaliyyət göstərən vahid beynəlxalq təxribat mərkəzi də eyniadlıdır - “Promotey”.

***

2007-ci ildə, Gürcüstan prezidenti Mixail Saakaşvili öz polşalı həmkarı Lex Kaçinski ilə birgə Tiflisdə Promoteyə aid heykəlin açılış mərasimini keçirir. Sadəlövh tamaşaçılar sevinirlər buna. Peşəkar siyasətçilər isə hadisə yerindən hazırlanmış telereportajları izləyə-izləyə başlarını bir müddət sağa-sola bulayırlar. Hiss edirlər ki, bu rəmz Gürcüstana yenə də həmişəki kimi xəta-bəla gətirəcək. Nəinki mərasim vaxtı deyildiyi tək müstəqillik, xoşbəxt günlər.

Elə də olur. Promotey alovu, əvvəl Gürcüstanı oda yaxır, sonra Polşanı. Tezliklə Osetiya münaqişəsi ortaya girib Gürcüstanı öz xarabalıqlarında bir ovuc küllə tək-tənha buraxır. Ardınca, Lex Kaçinskinin təyyarəsi, yüzə yaxın sərnişiniylə birgə, Xatın səmasında qəzaya uğrayıb dönür yenə bir ovuc külə. Qısası, Promotey alovu öz pərəstişkarlarını - Saakaşvili ilə Kaçinskini külə döndərib ətrafdakıları bərk diksindirir.

Heykəlin sifarişçiləri, müəllifi - Belçikada yaşayan gürcü heykəltəraşı Devi Xmaladze, habelə digərləri dişlərini bir-birinə sıxıb məcbur qalırlar Promotey abidəsini Tiflisdən çıxarıb kurort şəhəri Borjomiyə aparsınlar.

Siyasi ekspertlər isə bu vaxt səslərini bir pillə aşağı salıb, bir-birinin qulağına qədim, antirus “Promotey” əməliyyatı barədə ağlasığmaz dəlil-sübutlar pıçıldamağa başlayırlar. Fəxrimiz, dövlətimizin banisi Məhəmməd Əmin Rəsulzadənin adı da hərdən bu pıçıltılarda eşidilir.

***

Ötən əsrin 20-ci illərinin əvvəlində Türkiyədə mühacirət həyatı yaşayan M.Ə.Rəsulzadə Ankaranın Qırmızı Rusiya ilə əməkdaşlığını görüb, bərk kədərlənir. Amma pessimizmə qapılmır. Qərara gəlir, Atatürk Türkiyəsini Pilsudski Polşasına dəyişsin. 31 mart 1923-cü ildə Rəsulzadə köhnə dostu Pilsudskiyə məktub yazaraq ondan Türkiyədəki Azərbaycan zabitlərini, hərbi mütəxəssislərini Polşa ordusunda işə düzəltməyi xahiş edir. Mövzu ətrafında danışıqlara Polşa Xarici İşlər Nazirliyi əməkdaşları Tadeuş Qolubko, Edmund Xaraşkeviç, Tadeuş Şetsel də qoşulduqdan sonra, əvvəlcə Parisdə “Promotey” klubu açılır (1926-cı il), iki il sonra Varşavada.

Klublar kommunistlərin əsas devizi sayılan “proletar beynəlmiləlçiliyi”nə qarşı düşünülmüş bir cavabdı. Moskvanın bu siyasi xəttinə qarşı Varşava, millətçilərin internasionalını, beynəlxalq klubunu hazırlayıb bununla Böyük Britaniya, Fransa kəşfiyyatlarının diqqətini, maliyyə imkanlarını özünə cəlb etmək istəyirdi. 1929-cu ildə Polşa kəşfiyyatı mövzunu öz qanadları altına alır. Moskvaya qarşı xüsusi 2-ci şöbəsini açaraq başlayır ora Qafqaz, o cümlədən Azərbaycan, habelə Ukrayna, Orta Asiya millətçilərini səfərbərliyə alıb öz casus şəbəkəsinə cəlb etməyə. 1931-ci ildə, Türkiyədə mühacir təşkilatları yasaq edildikdən sonra Rəsulzadə öz ömrünü Polşa ilə bağlamağa qərar verərək, köçür Varşavaya. Pilsudskinin yaxın qohumu ilə evlənmək, habelə digər şərtlər ona imkan verir ki, Varşava kübar həyatının düz mərkəzində gur fəaliyyətə başlasın.

***

“Promotey” təşkilatı barədə, gəlin, xam xəyallara qapılıb, özümüzü aldatmayaq. Təşkilat əslinə baxanda əsl beynəlmiləl casus şəbəkəsi olub Paris, Varşava, İstanbul, Tehran, Xarbin, Helsinkidəki regional mərkəzlərindən idarə edilirdi. Təşkilatçılığı, rəhbərliyi Polşa kəşfiyyatına tapşırılmış bu məxfi qurumun maliyyəsi Fransa, Böyük Britaniya dövlətləri tərəfindən tam təmin olunurdu.

Uşaq olmayın, Moskvanı cibinizə qoymayın. Əsas hədəfi SSRİ-ni parçalamaq, dağıtmaq, zəiflətmək olan bu təşkilat elə yarandığı gündən bəri sovetlərin tam nəzarəti altındaydı. İndi Moskvada çap edilmiş o sənədləri oxuyarkən görürsən ki, Məhəmməd Əmin bəy başda olmaqla, promoteyçilərin bütün təşəbbüsləri, əməlləri elə beşikdəcə NKVD tərəfindən nəzarətə götürülüb, sonra müxtəlif bəhanələrlə uğurla azdırılırdı. Əslində NKVD bu təşkilatı dağıtmaq, məhv etməkdən çox onu öz ovcunda, nəzarətində saxlamaq niyyətində idi.

Ancaq taleyin həmişə öz tərs hökmü olur bu cür məxfi qurumlara, şəbəkələrə qarşı. Polşa əks-kəşfiyyatının, Baş Ordu Qərargahının bəslədiyi bu millətçi legionlar, Azərbaycan könüllüləri üçün 1939-cu ildən tamam başqa həyat start götürür. “Promoteyçilər” tam tərkibdə almanların tərəfinə keçib, öz antisovet fəaliyyətlərini bu dəfə bir başqa cür davam etdirməyə müyəssər olurlar. Vermaxtın tərkibində vuruşa-vuruşa Maykopdan Xasavyurda qədər böyük ərazini sovetlərdən azad edib, Bakıya yaxınlaşırlar.

Cəbhədə qüvvələrin tarazlığı sovetlərə tərəf əyiləndə, sabiq promoteyçilər kütləvi şəkildə sovetlərin tərəfinə keçəndə Berlin qərara gəlir, legionerləri öz cəza dəstələri tərkibinə qatsın. 1944-cü il Varşava üsyanı zamanı promoteyçilərin son qalıqları Berlin tərəfindən üsyançılara qarşı cəza tədbirlərinə cəlb edilir.

Hadisələr “nə tökərsən aşına, o da çıxar qaşığına” hikmətinə tam uyğun şəkildə cərəyan etməyə başlayır. Bu dəfə legionerlər öz köhnə sahiblərinə - Polşa millətçilərinə qarşı əməliyyatlarda ad qazanıb onların axırına çıxırlar.

“Promotey” kadrları, taktika və strategiyası sonrakı soyuq müharibə dövründə arxivlərə göndərilmir. SSRİ-yə qarşı başlanan hər yeni mübarizə mərhələsində Vaşinqton, London bu köhnə kadrlarını xatırlayıb onları öz məxfi təxribat planları, aksiyaları tərkibinə salmağı unutmur.

***

SSRİ-nin süqutundan sonra dirçələn Polşa öz köhnə “Promotey” əməliyyatını xatırlayıb yeni xəyallara qapılır. “Promotey” layihəsinə bu dəfə humanitar rəng verərək onu yenidən siyasi gündəmə qaytarır. 1920-30-cu illərdəki öz antisovet fəaliyyətini yada salıb, çeçen yaraqlılarından tutmuş Ukrayna millətçilərinədək çoxlarını öz yeni anti-Moskva planlarına cəlb etməyə başlayır.

“Promotey” əməliyyatını, mirasını diriltməyi planlaşdıran Lex Kaçinski ilə Mixail Saakaşvili məhz o vaxt - 2007-ci ildə Belçikada yaşayan gürcüyə sifarişi tapşırırlar. Abidə hazırlanır. Üstü ağ mələfə ilə örtülür. Heykəlin açılışından düz bir il sonra Promotey alovu Cənubi Osetiyanı öz ağuşuna alır, iki il sonra Polşa prezidenti Lex Kaçinskinin “TU-154” təyyarəsini.

Eşitdiyimə görə, müasir “Promotey” əməliyyatı rəhbərliyi öz tam heyəti ilə bu təyyarəyə əyləşib, Xatın qurbanlarının məzarı üzərindəki anım mərasiminə tələsirmiş.

Qarşı tərəf bu dəfə mətləbi çox uzatmayıb. Düyməni basanda barmaqları titrəməyib. Təyyarə ilə birlikdə bütün müasir promoteyçiləri o dünyaya göndəriblər.

***

Qanlı aksiya, görünür, cavabsız qalmamalıymış. Eyni “TU-154" hava gəmisi, bu dəfə bir başqa cür, Promotey alovuna məruz qalıb Soçi sahillərində dənizə çırpılır.

Təyyarənin göyərtəsindəkilər Suriyaya tələsən humanitar desant üzvləri idi.

Ancaq müasir siyasət, görünür, humanitar desantla hərbi desant arasında heç bir fərq görmək istəmir...

❑ **Həmid HERİSÇİ**

# Atanın varis planı, vəliəhdin uşaqlıq arzusu



**Samir SARI**

**Baxırsan gül kimi uşaqdır: saçı daraqlı, əyin-başı yerində, ağıllı-kamallı. Sual verirlər ki, böyüyəndə nəçi olacaqsan, bizim kimi kosmonavt olmaq istəmir, deyir, hələ seçim etməmişəm.**

Rəhmətliyin nəvəsi, sənin nəçi olmağını çoxdan, hələ atanla anan yeni tanış olanda müəyyən ediblər. Saşa deyib, Maşa, gəl evlənək, bir oğlumuz olsun, adını sonra qoyarıq, amma böyüsün, prezident olsun. İndi sənin ağzın nədir ki, onların varis planına qarşı çıxasan?

Söhbət qardaş Belarus xalqının ömürlük prezidenti Lukaşenkonun kiçik oğlu Nikolaydan gedir.

O uşaq anadan olandan bəri elə hey deyirdilər ki, guya Batka onu öz yerinə hazırlayır. Bugünlərdə bu şayiəni təkzib ediblər, Nikolayın dilindən müsahibə yayıblar, o da deyib ki, gələcəkdə prezident olmaq istəmir.

Niyə, quzu? Çətin həyata hazır deyilmiş vəliəhd. Bəs nəçi olacaqsan? Heç demə, Niko hələ fikirləşir, amma ya həkim olacaq, ya da hərbçi.

Əlbəttə, prezidentlik ixtisası deyə bir şey yoxdur, istənilən siyasətçi əvvəlcə bir peşə sahibi olur, sonra böyüdükcə prezidentlik eşqinə düşür. Görünür, Nikolay bunu hələ bilmir. Ona qalsa papası tarix və ictimaiyyət müəllimidir, amma budur, 22 ildir prezident işləyir, tarix dərsi demir, əvəzində tarix yazır.

Əslində Lukaşenkonun başqa böyük uşaqları da var, birinin adı Viktordur, o birininki Dmtri. İkisi də artıq deputat, vitse-prezident seçiləsi yaşa gəliblər. Amma nə işdirsə, Batka mehrini balaca gədəsinə salıb, xaricə, ora-bra gedəndə yanına salıb aparır, ona ədəb-ərkan öyrədir, prezidentlərin nə cür qarşılandığını, nə cür danışıqlar apardığını, necə qərarlar qəbul etdiyini göstərir.

Elə ona görə də camaat elə hesab edir ki, Lukaşenko axırda hakimiyyətini Nikolaya verəcək.

Düzdür, indilikdə xarici səfərlər Nikolaya ağır iş kimi görünür, amma bir azdan, yekələnəndə xoşuna gələcək.

O vaxt Suriyada Hafiz Əsəd də balaca Bəşəri yanına salıb gəzdirəndə gələcəkdə hakim olmaq istəyən Bəşər deyirmiş ki, atayi-mehriban, yoruluram, qoy bu dəfə səfərə getməyim. Hafiz Əsəd də deyirmiş, gözümün nuru, sən bu işi öyrənməlisən axı, məndən sonra bəs kim idarə edər bu boyda ölkəni.

O üzdən Bəşər Əsəd məcbur qalıb gələcəkdə prezidentlik etmək işini mükəmməl öyrənib. Hazırda gördüyünüz kimi, dünya yığıldı onun üstünə getdi, ölkəsini darmadağın etdilər, beş yerə parçaladılar, amma Bəşər Əsəd pəs etmədi, vəzifəsindən əl çəkmədi. Çünki bu ölkə ona ata mirasıdır, ata yadigarıdır, əmanətdir.

Belə uşağın biri də Şimali Koreyada idi, heç gör atası ona “məndən sonra prezident sən olacaqsan” deyəndə etiraz etdimi, “yox, mən həkim olmaq istəyirəm”, “hərbçi karyerası barədə düşünürəm” dedimi? Demədi. Niyə? Çünki ağıllı uşaq idi, İsveçrədə oxumuşdu, anlayırdı ki, ölkə rəhbəri olan adam avtomatik bütün generalların rəisi, baş komandanı olur. Al bu da sənə hərbçi karyerası. Leytenant, kapitan, mayor, polkovnik, general olmaq nəyə lazmdır, birbaşa marşal olursan, iş bitir.

Vaxt gəldi, vəliəhd Kim Çen In uğurlu hərbçi, artilleriyaçı oldu. O, atasının qırxı çıxmamış araq içən və bununla da dövlətçiliyə xəyanət edən bir generalı səhra topunun lüləsinin ağzına bağlatdırıb külünü göyə sovuranda məlum oldu ki, Kim hərb işini bilir.

Kim bilir, bəlkə Nikolay da gələcəkdə uğurlu hərbçi olacaq, atasının uğurlu xarici və daxili siyasətini davam etdirəcək? Elə də olacaq. Atalar deyib ki, usta oğlundan şəyird olmaz.

Vaxt gələcək, təxminən 2030-cu ildə-zadda Aleksandr Lukaşenko bir gün televiziyada, türkün sözü, ulusa səsləniş edəcək, deyəcək, ta qocalmışam, dövləti idarə etmək işini gənclərə buraxmaq istəyirəm, ona görə də hesab edirəm ki, indən belə prezidentiniz Nikolay Lukaşenko olsun.

O zamana qədər Nikolayın özünün “kruq”u olacaq, özlərini “islahatçılar” adlandıracaqlar. Ata Lukaşenkonun köhnə qvardiyası da gənc Lukaşenkonu dəstəkləyəcək, xalqın vəhdəti, dövlətin birliyi naminə onun ətrafında sıx birləşəcək və onu hakimiyyətə gətirəcəklər.

Bundan sonrası asandır. Balaca vaxtından saraylar, rəsmi qəbullar, açılışlar görmüş Nikolay Belarusu, necə lazımdır, idarə edəcək.

Bir gün o, əkə-bükə liderlər kimi növbəti müsahibəsini verəndə həsədlə xatırlayacaq: “Uşaq vaxtı həkim olmaq istəyirdim. Uşaqlıq arzum idi... Həyat... qismət...”

# 47 yaşlı azərbaycanlı oğlunu və onun sevgilisini niyə yandırdı?



**Moskva kənarında yerləşən Sosenskoe qəsəbəsində dəhşətli hadisə baş verib. Lent.az-ın Rusiya KİV-ə istinadən məlumatına görə, adıgedən qəsəbənin "Potapovskaya roşa" adlanan hissəsində yerləşən evlərin birində naməlum şəraitdə 3 nəfər yandırılıb. Onlardan ikisi - ata və oğul Azərbaycan vətəndaşlarıdır. Zərərçəkənlər ağır vəziyyətdə xəstəxanaya çatdırılsalar da, 47 yaşlı atanı xilas etmək mümkün olmayıb.**

Moskva kənarında yerləşən Sosenskoe qəsəbəsində baş verən dəhşətli hadisənin təfərrüatı məlum olub. Lent.az-ın Rusiya KİV-ə istinadən məlumatına görə, hadisə nəticəsində yanaraq ağır vəziyyətdə xəstəxanaya düşənlərdən biri azərbaycanlı gənc, digəri isə onunu sevgilisi imiş. Hadisənin ən dəhşətli tərəfi isə odur ki, onları azərbaycanlı gəncin atası yandırıb.

Polisin ilkin araşdırması zamanı məlum olub ki, 47 yaşlı Nail və oğlu tikintidə işləyirmiş. Nailin oğlu Beslan isə Sosenskoe qəsəbə sakini olan Yulya adlı qızla sevgiliymiş. Həmin gün Beslan Yulyanı atasıyla tanış etmək üçün yaşadıqları evə gətirib. Gənc oğlan atasına bildirib ki, onlar tezliklə evlənəcəklər. Bundan sonra hər üçü bir yerdə məclis qurublar. Bir qədər sonra Beslan siqaret çəkmək üçün bayıra çıxıb. Geri qayıdanda isə gördüyü səhnədən dəhşətə gəlib: atası Yulyanı çarpayıya uzadıb zorlamaq istəyirmiş.

Atasının üstünə qışqıraraq onu geri itələyən Beslan qızı götürüb getmək istəyib. Bu vaxt Nail otaqda olan benzin kanistrini onların üstünə tökərək yanğın törədib. Eyni zamanda benzin onun da paltarına sıçrayıb. Gənclər yanan evi tərk etməyə macal tapıblar. Nail isə sərxoş olduğundan bayıra çıxa bilməyərək yanaraq ölüb.

Amma Beslan və Yulya da ağır xəsarət alıblar. Hər ikisinin bədənində çoxlu yanıq izləri var və vəziyyətləri orta ağır kimi qiymətləndirilir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Duman olacaq, yağış yağacaq...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, dekabrın 27-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, səhər bəzi yerlərdə zəif duman olacağı gözlənilir. Gecəyə doğru isə yağış yağacağı ehtimalı var.**

Şimal-qərb küləyi gündüz mülayim cənub küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu Abşeron yarımadasında gecə 0-3, gündüz 6-8 dərəcə isti, Bakıda gecə 1-3, gündüz 6-8 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 767 mm civə sütunundan 763 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 80-90 %, gündüz 60-65 % təşkil edəcək.

Sabah Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Gecə və səhər bəzi yerlərdə duman, şərq rayonlarında isə çiskinli yağıntı olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 4-9 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 1-6 dərəcə isti olacağı gözlənilir.



## Bakıda sərnişin avtobusu ağır qəza törətdi: ölən var

**Bakıda daha bir sərnişin avtobusu ağır qəza törədib. Lent.az-ın məlumatına görə, Sabunçu rayonu ərazisində Zabrata gedən yolda (SOCAR yanacaqdoldurma məntəqəsinin qarşısında) 105 saylı xətt üzrə hərəkət edən "Otoyol" markalı, 10 TD 084 dövlət qeydiyyat nişanlı sərnişin avtobusu qadını vurub. Ağır xəsarət alan 1971-ci il təvəllüdlü Zəminə Əliyeva hadisə yerindəcə keçinib.**

Faktla bağlı Sabunçu Rayon Polis İdarəsində cinayət işi açılıb, araşdırma aparılır.



## Qanunsuz ceyran ovu ilə məşğul olan 3 nəfər tutuldu

**Azərbaycanda qanunsuz ceyran ovu ilə məşğul olan şəxslər tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Salyan Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 24-də Şirvan Milli Parkının əməkdaşları - Şəkərli kənd sakinləri Səyyar Nəcəfovun, İntiqam Ağasıyevin və İslam Rzayevin həyətyanı sahələrinə baxış zamanı 10 ədəd ceyran dərisi, 5 ceyran kəlləsi, 1 baş diri ceyran balası və 1 ədəd "TOZ-16" markalı tüfəng aşkar edilərək götürülüb. Hər 3 şəxs tutulub.**

Faktla əlaqədar cinayət işi başlanıb.

## "Metropark"da ayağı eskalatora ilişən 6 yaşlı qızın barmağı qopdu

**Bakı şəhəri, Nərimanov rayonunda yeləşən "Metropark" ticarət mərkəzində bədbəxt hadisə baş verib. Nərimanov Rayon Prokurorluğundan "Report"a verilən məlumata görə, ticarət mərkəzində eskalatorla hərəkət edən 6 yaşlı A.B. adlı qız ağır xəsarət alıb.**

Belə ki, 2010-cu il təvəllüdlü uşağın ayağı eskalatora ilişib və barmağının bir hissəsi qopub. Azyaşlı xəstəxanaya çatdırılıb, onun ayağının bir barmağı amputasiya olunub.

Faktla bağlı rayon prokurorluğunda araşdırma aparılır.

## Bakıda 25 yaşlı qız intihar edib

**Bakıda intihar hadisəsi baş verib. Binəqədi Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, rayon sakini, 1991-ci il təvəllüdlü Selcan Qasımova intihar məqsədilə sirkə turşusu içib.**

Təcili olaraq xəstəxanaya yerləşdirilən S.Qasımovanın həyatını xilas etmək mümkün olmayıb. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil.

Faktla bağlı araşdırma aparılır.


**Elan**

**Cəlilova Nərmin Cabbar qızına Bakı Texniki Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


**Başsağlığı**

**Dilarə Əliyeva Adına Qadın Hüquqları Cəmiyyətinin sədri Novella Cəfəroğlu və cəmiyyətin kollektivi İsgəndər Həmidova həyat yoldaşı**
**Rəna xanımın**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 289 (6610) 27 dekabr 2016

# Gələn il bütün sahələrdə bahalaşma olacaq

## Natiq Cəfərli: "Ərzaq məhsullarının qiymətində artımın daha da sürətlə getməsi ehtimalı çox yüksəkdir"

**2017-ci ilin çətin il olacağı deyilir. Bir sıra rəsmilər bu ildə insanları qənaət rejiminə keçməyə çağırır. Çünki ilin əvvəlindən etibarən yenidən bahalaşma baş verəcək. Bir sıra iqtisadçılar gələn il böhranın daha da dərinləşəcəyinin, milli valyutanın kəskin devalvasiyasının olacağını gözlədiklərini deyiblər.**

Gələn ildən avtomobillərin, yaxtaların, şubaların, xəzli paltoların, kürklərin qiymətinin bahalaşacağı proqnozlaşdırılır ki, buna da səbəb vergi qanunvericiliyində 2017-ci il yanvarın 1-dən qüvvəyə minən dəyişiklikdir. Dəyişikliklərdən biri də ölkəyə idxal olunan avtomobillərin aksiz dərəcələrinin artırılması, idxal olunan xəz-dəri məmulatlarının da aksiz vergisinə cəlb edilməsidir.

Gələn il başqa hansı sahələrdə bahalaşmanın olacağına gəlincə isə **iqtisadçı ekspert Natiq Cəfərli** bütün sahələrdə, o cümlədən də ərzaq məhsullarında qiymət artımının daha da sürətlə getməsi ehtimalının çox yüksək olduğunu dedi: "Qanunvericilikdə baş verən dəyişikliklərə görə, qiymət artımı olacaq. Amma ölkədə alıcılıq qabiliyyətinin aşağı düşdüyünü nəzərə alsaq, bu praktikanın nə qədər xeyir verəcəyi sual altındadır. Çünki alıcılıq qabiliyyəti olmayandan sonra qiymət məntiqə əsaslanmalıdır. Yəni elə bir qiymət olmalıdır ki, bunu alıcısı olsun. Onun alıcısı olmayandan sonra qiymətin baha olmasının bir önəmi də qalmır. Ərzaq məhsullarında isə tamam başqa təsir mexanizmləri var. Yanvar ayından ən azından kommunal xərclərdə artımın digər məhsulların qiymətlərinə təsir etməsinin sürəti artacaq. Bundan başqa, valyuta ilə bağlı da problemlər davam edir. Həm rəsmi məzənnə, həm də "qara bazar"da valyutanın qiymətinin artımı müşahidə olunur. Bu da təbii ki, ərzaq məhsullarına təsir göstərəcək. O mənada ki, bizdə hətta daxili istehsal adı altında bazara çıxarılan məhsulların bir çoxunun xammalı xaricdən gətirilir. Yəni elementar olaraq bir misalla bunu izah etmək olar ki, yerli çay brendləri, yerli çay məhsulları kifayət qədər çoxdur. Biz marketlərdə onlarla çeşiddə yerli istehsal adı altında bazara çıxarılan çay məhsulları görürük. Amma Azərbaycanda bu qədər çay kolu yoxdur. Təbii ki, bu da məlum olur ki, xaricdən gətirilmiş çayın Azərbaycanda qablaşdırılması və bazara çıxarılmasının şahidi oluruq. Bu da təbii ki, maya dəyərinə ciddi təsir göstərir. Dollar bahalaşdıqca xarici valyuta ilə alınan xammalın dəyəri də artır. Bu da qiymətlərə təsir göstərir. Ona görə də gələn il bir neçə istiqamətdə qiymətlərə təsir edəcək amillər formalaşacaq. Bütün sahələrdə, o cümlədən də ərzaq məhsullarında qiymət artımının daha da sürətlə getməsi ehtimalı çox yüksəkdir. Həm mövsümi amillər də buna təsir göstərəcək. Ənənəvi olaraq qış aylarında yazın ortalarına qədər yerli kənd təsərrüfatı məhsulları çıxana qədər Azərbaycanda qiymət artımını müşahidə edirik. İndi də bu profilaktika var. Bu amil də təsir göstərəcək və yanvar, fevral, mart aylarında qiymətlərdə bahalaşma baş verəcək. Martda Novruz bayramının olduğunu da nəzərə alsaq, bu pis bir ənənədir ki, bayram öncəsi qiymət daha sürətlə qalxır. Bütün bu amilləri cəmləşdirsək gələn il bütün sahələrdə, o cümlədən ərzaq məhsullarının qiymətlərində ciddi hiss ediləcək qiymət artımının olması ehtimalı çox yüksəkdir".



**Hansısa addımlarla bu bahalaşmanın qarşısının alınmasının mümkünlüyünə gəlincə isə N.Cəfərli bunun üçün sehrli çubuğa ehtiyac olduğunu dedi:** "Belə bir sehrli çubuq, formul yoxdur ki, bunun qarşısını alsın. İnzibati yollarla da bunun qarşısını almaq mümkün deyil. Ümid edirəm ki, hökumət də bunu anlayacaq və inzibati qaydada sovet terminologiyalarından istifadə edərək süni qiymət artımı anlayışı gündəmdən çıxacaq. Çünki normal iqtisadiyyatda, rəqabətli iqtisadiyyatda süni qiymət artımı mümkün deyil. Qiymətin dövlət tərəfindən tənzimlənməsi, əksinə, daha sonra qıtlığa səbəb olur və ciddi problemlərə gətirib çıxarır. Amma hökumətin əlində bəlli alətlər var ki, bundan istifadə edib qiymətlərin ən azı artım sürətini aşağı sala bilər. Bu, vergi, gömrük rüsumlarında olan güzəştlərdir. Amma hökumətin buna da gedəcəyini düşünmürəm. Çünki büdcənin formalaşması ilə bağlı ciddi problemlər var. Büdcə gəlirlərinin azalması fonunda hər hansı bir endirimlərə getmək, ciddi vergi və gömrük güzəştlərinə getmək düşünürəm ki, mümkün olmayacaq. Ona görə də hökumətin edə biləcəkləri də əslində azdır. Amma bəzi sahələrdə müəyyən addımlar atılmalıdır. Düşünürəm ki, bu cür addımlar atılsa, bu ciddi təsir göstərə bilər. Ən azından sosial həssas mövzularda, məsələn, dərman qiymətlərində bəzi addımlar atıla bilər. Dərmanların ölkəyə gətirilərkən əlavə dəyər vergisindən və gömrük rüsumlarından tamamilə azad olunması məsələsi gündəmə gələ bilər. Çünki yerli istehsal onsuz da yoxdur. Gömrük rüsumlarının və əlavə dəyər vergisinin qoyulması çox zaman yerli istehsalın qorunması üçün atılan addımdır. Yerli istehsal yoxdursa, demək ki, qorumağa da bir şey yoxdur. Ona görə də dərman sahəsində əlavə dəyər vergisini və gömrük rüsumlarını tamamilə sıfırlamaq mümkündür. Bu da dərmanların qiymətinin sürətlə artmamasına səbəb ola bilər, müəyyən dərəcədə tənzimləyə bilər və dərmanlar çox da bahalaşmaya bilər. Hökumətin bu alətlərdən istifadə edib-etməyəcəyini demək isə açığı, çətindir".

❑ **Günel MANAFLI**

# Ölkəni tərk edənlərin sayı artır

## Ekspert: "İnsanlar bu çətinlikdən yaxasını qurtarmaq üçün xaricə üz tuturlar, amma..."

**Son illər ölkədən daimi yaşamaq üçün xaricə üz tutanların, mühacirət edənlərin sayı artıb. İctimai sferaya da diqqət etsək, bir sıra siyasilərin, jurnalistlərin bu və ya digər səbəblərdən ölkəni tərk edərək Avropaya üz tutmalarını görə bilərik.**

Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərdən də son illərdə ölkəni tərk edənlərin sayında artım olduğu müşahidə edilir. Belə ki, rəsmi rəqəmlərə görə, 2014-cü ildə ölkəni 800, 2015-ci ildə isə 1600 nəfər tərk edib. Lakin ekspertlər bildirirlər ki, açıqlanan rəsmi rəqəmlər heç də mövcud sayı olduğu kimi əks etdirmir. Onların sözlərinə görə, açıqlanan rəsmi rəqəmlərdən daha çox insan ölkəni tərk edib və bu tendensiya davam etməkdədir.

Dünyada miqrasiya və emiqrasiya prosesləri daha çox iqtisadi-siyasi proseslərlə əlaqələndirilir. Azərbaycanda da son illər iqtisadi durum əvvəlki illərlə müqayisədə ürəkaçan səviyyədə deyil. Manatın dollar qarşısında getdikcə dəyər itirdiyini, ölkədə bahalaşma prosesinin genişləndiyini nəzərə alan ekspertlər 2017-ci ildə də müəyyən sayda insanın xaricə üz tutacağını bildirirlər.

**Sosioloq Əhməd Qəşəmoğlu mövzu ilə bağlı "Yeni Müsavat"a bildirib ki, 2017-ci ildə ölkədən toplu şəkildə xaricə axın olacağını gözləmir:**

"Təbii ki, baş verənlər iqtisadi amillə, çətinliklə bağlıdır. Son illər hər kəs etiraf edir ki, ölkədə iqtisadi vəziyyət çətindir. İnsanlar bu çətinlikdən yaxasını qurtarmaq üçün xaricə üz tuturlar. Lakin çox təəssüf ki, hazırda heç xarici ölkələrdə də vəziyyət yaxşı deyil. Hazırda Avropanın, Qərb ölkələrinin, Türkiyənin, Rusiyanın özü də problemlər içərisindədir. Bu baxımdan, xaricə gedənlərin sayının çox olacağını gözləmirəm. Fizikada birləşmiş qablar qanunu var. Belə ki, qabların birində maye olduqda, digərinə də axır. İndi o biri ölkələrdə boşluq, rahatlıq deyil ki, burada çətinliyə düşənlər xaricə getsinlər. Əslində Azərbaycanın öz əhalisini saxlamaq üçün çox ciddi potensialı var. İqtisadiyyat sahəsində qeyd edilən dəyişikliklər olmalıdır. Çoxlu iş yerləri açılmalı, kəndlərdə torpaqdan istifadə üçün həqiqi şərait yaradılmalıdır. Bu şərait yaradılarsa, bir çox insanlar öz evlərinə-kəndə qayıdacaqlar. Onlar kəndə qayıtdıqda isə Bakıda da iş yerləri çoxalacaq. Kəndin torpağını isə normal işlədə bilsək, ölkədə iqtisadi vəziyyət də müəyyən qədər yaxşılaşacaq. Bütün bunları nəzərə alaraq, Azərbaycandan gələn il böyük köç gözləmirəm. Hazırda müəyyən qədər insan xaricə üz tutur. Bu, hələ ki təbii prosesdir. Müxtəlif zamanlarda bu rəqəmlər artıb və ya azalıb".



**Ekspert Avropada terrora da diqqət çəkərək bildirib ki, bu hal da xaricə üz tutmaq istəyənlərə təsir edəcək əsas faktorlardan biridir:**

"Azərbaycanın əsas üstün cəhəti odur ki, hazırda ölkədə sakitlikdir. Xarici ölkələrdə hazırda elə bir vəziyyət yaranıb ki, adam bilmir küçəyə çıxandan sonra evə sağ qayıda biləcək, yoxsa yox. Avropa ölkələrində heç bilmirsən hava limanından sağ çıxacaqsan, ya nə isə terror hadisəsi olacaq. Bütün bunları nəzərə alsaq, yuxarıda da qeyd etdiyim kimi, dünyanın özündə hazırda vəziyyət gərgindir. Azərbaycanda heç olmasa sabitlik var. İnsanlar hazırda gözləyirlər ki, ölkədə aqrar sektor inkişaf edəcək, iş yerləri açılacaq. Yəni hələ ki insanlar gözləmə anındadırlar və onlarda bir ümid var. Bu baxımdan da 2017-ci ildə əsaslı köç olmayacaq".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT

Son səhifə

N 289 (6610) 27 dekabr 2016



## Kişilərdə keçəlliyin dərmanı tapılıb

ABŞ Pensilvaniya Universitetinin bir qrup alimi kişilərdə saç tökülmə və keçəlləşmənin səbəbinin müəyyən edilməsində ciddi nailiyyət əldə edib. Universitet laboratoriyalarında aparılmış tədqiqat nəticəsində saç tökülməsinin qarşısını almaq və hətta saçların bərpa edilməsi yolları araşdırılıb. Keçəlləşməyə məruz qalan kişilər və laboratoriya siçanları üzərində aparılmış tədqiqatlar nəticəsində ABŞ alimləri saç tökülməyə səbəb olan proteini aşkar ediblər. Elmi araşdırmanın nəticələri keçəlliyi müalicə edən kremin yaradılmasına gətirə bilər. Alimlər aşkar ediblər ki, "prostaglandin D synthase" adlı protein baş dərisinin keçəlləşən sahələrinə aid zonalarda saç folekullarının hüceyrələrində toplaşır, lakin tüklü sahələrdə toplaşmır.

Həmin proteinin səviyyəsi yüksək olan laboratoriya siçanları tamamilə keçəl olub, saç transpantasiyası əməliyyatından keçmiş kişilərdə isə saç böyüməsi dayanıb. Tədqiqatlara rəhbərlik edən Pensilvaniya Universitetinin dermatologiya fakültəsinin professoru George Cotsarelis deyir ki, prostaglandin proteinin saçın tökülməsinə səbəb olduğu faktı sübut edilib.

Növbəti addım isə bu proteinə təsir edən maddələri aşkar etmək və proteinin bloklanmasının keçəlliyin qarşısını ala bilməsi və hətta itirilmiş saç örtüyünün bərpa edilməsinin mümkünlüyünün yoxlanmasından ibarət olacaq.

## Evsizləri təbrik etmək üçün 2.4 min dollar xərclədilər

Londonun əhalisi Yeni il bayramı münasibətilə şəhərdəki evsizlərə hədiyyə almaq üçün 2 min funt (2.4 min dollar) xərcləyib. 25 yaşlı Oreal Killian bu xeyriyyə aksiyasının iştirakçılarından biri olaraq geniş bir videorolik hazırlayaraq, onu facebook səhifəsində yayıb. 24 dekabrda yayımlanan videoklipi iki gün ərzində 7 mindən artıq insan izləyib. Killianla birlikdə hədiyyələri 30 britanialı paylayıb. Videoda da qeyd olunub ki, komanda yemək, içki və geyimlə 200 evsiz insana yardım edib.



## 67 yaşlı qadın surroqat ana oldu, navasini dünyaya gətirdi

67 yaşlı Yunanıstan sakini Anastasiya Ontau dünyanın ən yaşlı surroqat anası olub. O, hamilə qala bilməyən 43 yaşlı qızı üçün bu fədakarlığı edib. O, öz nəvəsini qeysəriyyə əməliyyatı ilə dünyaya gətirib. Körpə qız vaxtından 6 həftə öncə, 1.2 kilo ağırlığında dünyaya göz açıb. Ontau qızına yeddi dəfə uğursuz hamilə qalma cəhdindən sonra "öz bətnini təklif edib". Həkimlər qızına sonsuzluq diaqnozu qoyandan sonra ana öz qızı üçün belə fədakarlıq edib. 43 yaşlı qızı Konstantin etiraf edib ki, anasından bu təklifi eşidincə onun dəli olduğunu düşünüb. Hamiləliyi müşahidə edən həkim Konstantinos Pantos pasientini qəhrəman adlandırıb. Anastasiya isə deyib ki, özünü daha çox nənə hesab edir, nəinki ana.

Ontaudan əvvəl dünyanın ən yaşlı surroqat anası 66 yaşlı Mariya del Karmen Busada Lara olub. İspan qadın uzunömürlülük genlərinə sahib olduğu üçün özü uşaq doğmaq, onları böyütmək və təbii ki, nəvələrini də görmək arzusunda olub. O, 2006-cı ilin dekabrında əkizləri dünyaya gətirib, 2009-cu ildə isə xərçəngdən dünyasını dəyişib.





## İstirahətdən sonra heyvanlar da depressiyaya girir

Fransada aparılan bir araşdırma sübut edib ki, sahibləri ilə birgə istirahətə gedən heyvanlar tətildən sonra neqativ hərəkətlər edir. Araşdırmaya siam pişiyi ilə qatılan Filip Uzan bildirib ki, tətildən evə qayıdandan sonra pişik bir neçə gün yatağını və xalçanın üstünü kirlədib. Alman qurd it sahibi olan Monique Gastinel də deyib ki, istirahətdən qayıdandan sonra iti narazı görünür və onun əmrlərini yerinə yetirmir. Heyvan psixoloq-mütəxəssisi Aline Auble isə deyib ki, bu, heyvanlar üçün normal durumdur. Çünki onlar da insanlar kimi yeni yerlər görməyi, yeni insanlarla tanış olmağı arzulayırlar. Psixoloq hesab edir ki, tətildən sonra şıltaqlıq edən heyvanları cəzalandırmaq əvəzinə, onlara yeni oyuncaqlar alınmalı, evdə qalmağın gözəllikləri aşılanmalıdır. Araşdırmanı imzalayan Selin Mousur isə deyib ki, bu müddətdə yemək yeməyi rədd edən və damlarından çıxmaq istəməyən heyvanları buna məcbur etmək doğru deyil.




**QOÇ** - Əgər kənar təsirlərə uymasanız, heç bir qanqaraçılıqla üzləşməyəcəksiniz. Çalışın ki, öz ideya və fikirlərinizdə qətiyyətli olasınız. Mənasız səbəbdən özünüzü gərginliyə salmayın.

**BUĞA** - Günün birinci yarısını süst şəkildə başa vursanız da, sonrakı müddətdə ovqatınıza müsbət təsir edə biləcək olaylarla qarşılaşacaqsınız. Aldığınız təkliflərə həssas yanaşın.

**ƏKİZLƏR** - Astroloji bilgilərə əsaslansaq, bu təqvim sizin üçün müəyyən gərginliklərlə müşahidə olunacaq. Daha çox ailə üzvlərinizlə münasibətləri tənzimləməyə çalışın. Uzaq yola çıxmayın.

**XƏRÇƏNG** - Çox güman ki, bu gün boş vaxtınız çox olacaq. Belə olan təqdirdə isə mədəni istirahətə yol vermək lazım gəlir. Bu səbəbdən də ürəyinizcə olan ünvanlarda qonaq sifətilə iştirak etməlisiniz.

**ŞİR** - Sağlamlığınıza xüsusi diqqət yetirməklə gözlənilən təhlükəni aradan qaldıra bilərsiniz. Sonrakı saatları isə bütünlüklə sevgiyə həsr edin. Pulla bağlı sövdələşmələri təxirə salın.

**QIZ** - Son vaxtlar yamanca qərarsız olmusunuz. Bir az təmkinli olun. Hadisələri qabaqlamağa çalışmayın. Yalnız gündəlik qayğılarınızla məşğul olun. Başqalarının işinə müdaxilə etməyin.

**TƏRƏZİ** - Risk etməyə dəyər. Ulduzlar tərəfinizdə durduğundan qəlbinizdə cövlan edən ideyaları qabartmalı və həllini sürətləndirməlisiniz. Heç nədən çəkinməyin. Qabiliyyətinizdən bəhrələnin.

**ƏQRƏB** - Yəqin bilməmiş deyilsiniz ki, həftənin bu günü qazanmaq üçün sizə o qədər də düşərli deyil. Odur ki, bu istiqamətdə əziyyətə qatlaşmağa dəyməz. Əsas enerjinizi fəaliyyətə yönəldin.

**OXATAN** - İlin-günün bu vaxtında Ay da bürcünüzdə qərar tutmağa vaxt tapdı. Neyləmək olar, kosmosla kosmosluq etmək olmaz ki?! Heç olmasa ciddi işlərinizi bu günlük təxirə salmağa çalışın.

**OĞLAQ** - Günün ümumi mənzərəsini qənaətbəxş hesab etmək olar. Hətta ətrafınızda olanlardan bəziləri çöhrənizə təbəssüm də qata bilər. Ötən dövrlərdə buraxdığınız səhvlərdən nəticə çıxarın.

**SUTÖKƏN** - Olduqca aktiv gündür. Ürəyinizcə olan çoxsaylı hadisələrlə rastlaşmaq ehtimalınız var. Sevindirici xəbərlər, ümidli gələcək haqqında düşüncələr yolunuzu gözləyir.

**BALIQLAR** - İşlərinizin çox olması sizi bərk yoracaq. Amma bunun xeyirli nəticə verəcəyini düşünüb əzmkarlığınızı artırmalısınız. Axşama yaxın maraqlı bir hadisə ilə rastlaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadının saç rəngi onun çox pul xərcləməsinə təsir edir?



Qarayanız qadınlarla müqayisədə sarışınların həyatı daha uğurlu olur. Britaniya mətbuatının yazdığına görə, bu, yerli "The Motley Fool" saytının tədqiqatı nəticəsində məlum olub. Xüsusilə sarışın xanımların digərləri ilə müqayisədə daha çox pul qazandıqları üzə çıxıb. Amma onların daha bədxərc olduqları da müəyyənləşib.

Araşdırma göstərib ki, sarışınlar orta hesabla 334 avronu xırdavat və bəzək əşyalarına xərcləyir. Şokolad, çanta və ayaqqabılara xərclənən pullar da qarayanızlarla müqayisədə sarışınlarda daha çoxdur.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.